# 1 Şamuel

*Kitabı*

**Giriş**

*«1 Şamuel»* Kitabı İsrailin hakimlər dövründən padşahlığa keçid dövrünün salnaməsidir. Ölkədə dəyişikliklər əsasən üç nəfər – böyük hakimlərin sonuncusu Şamuelin, İsrailin birinci padşahı Şaulun və onların qarşılaşdığı İsrailin gələcək hökmdarı Davudun vasitəsilə baş verir. Şamuel və Şaul gənc Davudun həyatına tə’sir edir.

Əhdi-Ətiqin digər tarixi yazıları kimi bu kitabın da əsas mövzusu belədir: Allaha sədaqət uğur, itaətsizlik isə fəlakət gətirir. Bu fikir Rəbbin kahin Eliyə göndərdiyi xəbərdə aydın ifadə olunur: «Mənə hörmət edənləri hörmətə çatdıracağam, Məni saymayanlar isə rüsvay ediləcək!» (2:30)

*«1 Şamuel»* Kitabında padşahlığın qurulmasına müsbət nöqteyi-nəzərdən baxılmır, çünki Rəbb Özü İsrailin padşahı sayılırdı. Lakin xalqının xahişini nəzərə alaraq Rəbb onlar üçün padşah seçdi. Ən vacib o idi ki, İsrail xalqı da, padşah da Allahın hakimiyyəti altında yaşayırdı. Bütün xalqın – varlıların da, kasıbların da hüquqları Allahın qanunlarının himayəsi altında qorunurdu.

Qədim yunan və bə’zi müasir tərcümələrdə *«1 və 2 Şamuel»* ilə *«1 və 2 Padşahlar»* Kitabları *«1, 2, 3 və 4 Padşahlıqlar»* başlığı ilə yazılıb.

***Kitabın məzmunu:***

Şamuel İsrailin hakimidir 1:1-7:17
Şaulun padşah seçilməsi 8:1-10:27
Şaulun hakimiyyətinin ilk illəri 11:1-15:35
Şaulun Davudu tə’qib etməsi 16:1-30:31
Şaul və oğullarının ölümü 31:1-13

## *Şamuelin doğulması*

1 1 Efrayimin dağlıq bölgəsində yerləşən
Ramatayim-Sofim şəhərində Elqana adlı
bir adam yaşayırdı. O, Efrayim sakini olub
Suf tayfasından – Suf oğlu Toxu oğlu Elihu
oğlu Yeroxamın oğlu idi. 2 Elqananın Xanna
və Peninna adında iki arvadı vardı.
Peninnanın uşaqları var idi, amma Xannanın
övladı olmurdu. 3 Elqana Ordular Rəbbinə
səcdə qılmaq və qurban kəsmək üçün hər il öz
şəhərindən Şiloya gedərdi. Eli, Xofni və
Pinxas adlı iki oğlu ilə orada Rəbbin kahinləri
idi. 4 Elqana qurban kəsilən gün arvadı
Peninnaya, oğul və qızlarının hamısına pay
verərdi. 5 Xannaya isə ikiqat pay verərdi. Rəbb
onun bətnini bağlamışdı, buna baxmayaraq
Elqana onu çox sevirdi. 6 Günüsü Peninna isə
Xannanın Rəbb tərəfindən bətninin
bağlanmasına görə həmişə ona sataşar və
xətrinə dəyərdi. 7 Bu, illərlə belə davam edirdi.
Xanna hər dəfə Rəbbin ibadətgahına gedəndə
günüsü ona söz atar, Xanna da ağlayar, yemək
yeməzdi. 8 Bir gün əri Elqana ona dedi:
«Xanna, niyə ağlayırsan? Niyə yemək
yemirsən? Axı niyə kədərlisən? Mən sənə on
oğuldan da artıq deyiləmmi?»
9 Onlar Şiloda yeyib-içəndən sonra Xanna
ayağa qalxdı. Kahin Eli Rəbbin mə’bədinin
qapısının yanındakı kürsüdə oturmuşdu.
10 Xanna ürək yanğısı ilə dua edərək acı-acı
ağlayırdı. 11 Rəbbə yalvararaq əhdini belə
söylədi: «Ey Ordular Rəbbi, Öz dərdli
bəndənin vəziyyətini görürsən. Mən bəndəni
unutmayıb bir oğul versən, oğlumun həyatını
Sənə həsr etmək üçün verər və qoymaram ki,
onun başına ülgüc dəysin».[1]
12 Xanna Rəbbin hüzurunda uzun müddət
dua etdi. Eli isə onun ağzına baxırdı. 13 Xanna
qəlbində yalvardığı üçün yalnız dodaqları
tərpənirdi, səsi eşidilmirdi. Eli elə güman etdi
ki, o, sərxoşdur. 14 Ona görə də dedi: «Nə
vaxta qədər sərxoşluq edəcəksən? Bəsdir, at
bu şərabı». 15 Xanna cavabında dedi: «Xeyr,
ağam, mən nə şərab içmişəm, nə də başqa
içkilər. Könlü qəm-qüssəli bir qadınam ki,
sadəcə Rəbbin hüzurunda ürəyimi boşaldıram.
16 Kənizini pis qadın sanma. Bu yalvarışım
indiyədək çəkdiyim böyük qayğı və əziyyətə
görədir». 17 Eli cavab verib dedi: «Salamat get,
qoy İsrailin Allahı səni muradına çatdırsın!»
18 Xanna «təki bəndən sənin gözlərində lütf
tapsın» deyib yolu ilə getdi və yemək yedi.
Artıq çöhrəsi kədərli deyildi.
19 Ertəsi gün onlar sübh tezdən qalxıb
Rəbbə səcdə qılandan sonra Ramadakı
evlərinə qayıtdılar. Elqana arvadı Xanna ilə
yaxınlıq etdi və Rəbb də Xannanı yada saldı.

---

***1:11** – Say. 6:5*

[1] **1:11** Saçını qırxdırmamaq özünü Rəbbə təqdim etmək əlamətidir. Bax: Say. 6:5.

20 Vaxt keçdi, Xanna hamilə olub bir oğul
doğdu. «Onu Rəbdən dilədim» deyərək adını
Şamuel[2] qoydu.

### *Xannanın Şamueli Allaha təqdim etməsi*

21 Elqana Rəbbə illik qurbanını və əhdini
yerinə yetirmək üçün evdəkilərlə bərabər
Şiloya getdi.
22 Amma Xanna getmədi. Ərinə «körpəni
süddən kəsəndən sonra onu Rəbbə xidmət
etmək üçün aparacağam və ömrü boyu orada
qalacaq» dedi. 23 Əri Elqana ona dedi:
«Gözündə nə xoşdursa, elə də et, onu süddən
ayırana qədər evdə otur. Qoy Rəbb Öz və'dini
yerinə yetirsin». Qadın evdə qalıb oğlunu
süddən ayırana qədər əmizdirdi. 24 Uşağı
süddən ayırandan sonra Xanna onu üç buğa,
bir efa un və bir tuluq şərabla birlikdə Rəbbin
Şilodakı ibadətgahına apardı. Uşaq isə hələ
balaca idi. 25 Buğanı kəsəndən sonra uşağı
Eliyə verdilər. 26 Xanna dedi: «Ey ağam,
canına and olsun, burada – sənin yanında
durub Rəbbə yalvaran qadın mənəm.
27 Yalvarışım bu uşaq üçün idi, Rəbb
muradımı yerinə yetirdi. 28 Mən onu Rəbbə
əhd etmişdim və ömrü boyu Rəbbə həsr
olunmalıdır». Sonra uşaq orada Rəbbə səcdə
etdi.

### *Xannanın duası*

2 1 Xanna Rəbbə belə dua etdi:
«Rəbdə tapdığım sevincdən ürəyim
cuşa gəlir,
Rəbb mənə böyük güc verir,[3]
Düşmənlərimin önündə öyünürəm,
Çünki Sən məni qurtardığına görə
sevinirəm.

2 Rəbbə oxşar ikinci müqəddəs yoxdur,
Ey Rəbb, yeganəsən Sən!
Allahımız kimi sığınacaq qaya yoxdur!

3 Artıq qürurla danışmayın,
Dilinizdən təkəbbürlü sözlər çıxmasın.
Çünki Rəbb hər şeyi bilən Allahdır,
Hər iş Onun tərəfindən ölçülür.

4 İgidlərin yayları qırılır,
Büdrəyənlər isə Onun qüdrəti ilə
qurşanır.
5 Toxlar azuqə üçün muzdla işlərkən
Aclar doyuzdurulur.
Sonsuz qadın yeddi övlad doğur,
Çoxuşaqlı qadın isə tənha qalır.

6 Rəbb insanı həm öldürür, həm dirildir.
Ölülər diyarına həm endirir, həm çıxarır.
7 Rəbb yoxsulluq və var-dövlət göndərir,
Alçaldır və yüksəldir.
8 O, yoxsulları toz-torpağın içindən
götürür,
Fəqirləri küllükdən çıxarır.
Onları hökmdarların yanında əyləşdirir,
Onlara irs olaraq şərəf taxtını verir.
Çünki Rəbb yerin təməlini qoydu,
Onun üzərində dünyanı qurdu.
9 Sadiq qullarının addımlarını qoruyur,
Pisləri isə zülmətdə susdurur.
Çünki insan öz qüvvəsi ilə zəfər çalmır.

10 Rəbbə qarşı duranlar parça-parça
olacaq,
Haqq-Taala onların üzərində göyləri
gurladacaq.
Rəbb bütün dünyada hakimlik edir,
Öz padşahına qüvvət verəcək,
Məsh etdiyinə böyük güc verəcək!»
11 Sonra Elqana Ramadakı evinə qayıtdı.
Kiçik Şamuel isə kahin Elinin nəzəri altında
Rəbbə xidmət etməyə başladı.

### *Elinin oğullarının pis əməlləri*

12 Elinin oğulları yaramaz adamlar idi.
13 Onlar Rəbbi tanımırdı. Bu kahinlərin xalqla
rəftarı belə idi: qurban təqdim edilən zaman,
ət qaynayarkən kahinin xidmətçisi əlində
üçdişli ət qarmağı ilə gələrdi. 14 Ət qarmağını
qazana, təknəyə, tavaya, bardağa salardı və
qarmaqla nə çıxardısa, bu kahinlər onu
özlərinə götürərdi. Onlar Şiloya qurban
gətirən İsraillilərin hamısı ilə belə rəftar
edirdilər. 15 Üstəlik də qurbanın iç piyini
yandırmazdan əvvəl kahinin xidmətçisi gəlib
qurban gətirən adama deyərdi: «Kahinə
qızartma üçün ət ver. İndi isə o səndən bişmiş
ət deyil, çiy ət istəyir». 16 Əgər qurban gətirən
«qoy əvvəlcə iç piyi yandırılsın, sonra
istədiyin payı gəl götür» deyərdisə, xidmətçi
«xeyr, indi ver, yoxsa zorla götürərəm» deyə

[2] **1:20** *Şamuel* – ibrani dilində *Allah tərəfindən eşidildi.*
***2:1-10*** *– Luk. 1:46-55*
[3] **2:1,10** *Mənə böyük güc verir* deyə tərcümə edilən söz ibrani dilində *buynuzumu yüksəldir* idiomudur.

***2:8*** *– Zəb. 113:7*

cavab verərdi. 17 Rəbbin gözü önündə bu
gənclər çox böyük günah işlədirdilər, çünki
onlar Rəbbə gətirilən təqdimlərə hörmət
etmirdilər.

18 Kiçik Şamuel isə əyninə kətan efod
geyərək Rəbbin önündə xidmət edirdi.
19 Anası Şamuelə kiçik cübbə tikərdi. Hər il
atası illik qurbanı təqdim etmək üçün Şiloya
gələndə o da tikdiyi kiçik cübbəni gətirib
oğluna verərdi. 20 Kahin Eli isə Elqana ilə
arvadına xeyir-dua verərək «arvadının istədiyi
və Rəbbə əhd etdiyi uşağın yerinə Rəbb sənə
bu qadından yeni övladlar versin» deyərdi.
Bundan sonra onlar evlərinə qayıdardı.
21 Rəbbin lütfü ilə Xanna yenə hamilə olub
bundan sonra üç oğul və iki qız doğdu. Kiçik
Şamuel isə Rəbbin hüzurunda böyüyürdü.

22 Eli artıq çox qocalmışdı. O, oğullarının
İsraillilərə etdikləri və Hüzur çadırının
girişində xidmət edən qadınlarla
əxlaqsızlıqları barədə hər şeyi eşitmişdi. 23 Eli
onlara dedi: «Nə edirsiniz? Bütün xalqdan
etdiyiniz pis əməllər barədə eşidirəm. 24 Belə
yaramaz, oğullarım! Eşitdiyim yaxşı xəbər
deyil. Rəbbin xalqını yoldan çıxarırsınız.
25 İnsan insana qarşı günah işlədərsə, onun
üçün Allaha yalvarmaq olar. Amma Rəbbə
qarşı günah işlədənə kim yalvarışla zamin
durar?» Lakin onlar atalarının sözlərinə qulaq
asmazdılar, çünki Rəbb onları ölümə məhkum
etmişdi. 26 Kiçik Şamuel isə getdikcə böyüyür,
Rəbbin və insanların gözündə hörmət
qazanırdı.

### *Elinin oğulları haqqında peyğəmbərlik sözü*

27 Həmin dövrdə bir Allah adamı Elinin
yanına gəlib söylədi: «Rəbb belə deyir:
"Misirdə atan və onun nəsli fir'onun xalqına
kölə olarkən Özümü onlara aydın
göstərmədimmi? 28 Qurbangahıma çıxaraq
buxur yandırıb önümdə efod geyməsi üçün
bütün İsrail qəbilələri arasından yalnız atanı
Özümə kahin seçmədimmi? İsraillilər üçün
buyurduğum təqdimləri atanın nəslinə
vermədimmi? 29 Bəs nə üçün məskənimə
buyurduğum qurban və təqdimlərə
hörmətsizlik edirsiniz? Nə üçün oğullarını
Məndən üstün tutursan? Xalqım İsrailin bütün
təqdimlərinin ən ə'lası ilə özünüzü
kökəltdiyinizə görəmi?" 30 Ona görə də
İsrailin Allahı Rəbb belə deyir: "Həqiqətən,
ailən və ata nəslin əbədilik Mənə xidmət
edəcək" demişdim, amma indi belə deyirəm:
"Yox, Mən belə etməyəcəyəm. Mənə hörmət
edənləri hörmətə çatdıracağam, Məni
saymayanlar isə rüsvay ediləcək! 31 Budur, elə
günlər gəlir ki, sənin də, ata nəslinin də
gücünü qıracağam və nəslindən heç kim uzun
ömür sürməyəcək. 32 İsrailə etdiyim yaxşılığın
əvəzinə sən evində qəm-qüssə görəcəksən və
artıq nəslindən heç kim uzun ömür
sürməyəcək. 33 Aranızda qurbangahımdan
ayağını kəsmədiyim bir adam olacaq ki, onu
da gözlərini kor etmək və qəlbini
kədərləndirmək üçün sağ saxlayacağam.
Nəslindən olanların hamısı az ömür sürüb
öləcək. 34 İki oğlunun – Xofni və Pinxasın
eyni bir gündə ölməsi sənə bir işarə olacaq.
35 Mən isə Özümə istəklərimi və arzularımı
yerinə yetirən vəfalı bir kahin seçəcəyəm.
Onun nəslini əbədiləşdirəcəyəm. Məsh
etdiyimin önündə o xidmət edəcək.
36 Ailəndən sağ qalan hər kəs bir az gümüş pul
və bir parça çörək üçün gəlib onun qarşısında
əyiləcək, ‹nə olar, bir parça çörək üçün mənə
hər hansı bir kahinlik işi ver› deyərək
yalvaracaq"».

### *Allahın Şamueli çağırması*

3 1 Gənc Şamuel Elinin başçılığı altında
Rəbbə xidmət edirdi. O vaxt Rəbbin
sözünün nazil olması və görüntülərin
görülməsi nadir hallarda baş verirdi. 2 Bir gecə
Eli yatağında uzanmışdı. Onun gözləri zəif
olduğuna görə yaxşı görmürdü. 3 Şamuel isə
Rəbbin mə'bədində – Allahın sandığı olan
yerdə uzanmışdı və Allahın çırağı hələ
sönməmişdi.

4 Rəbb Şamueli çağırdı. O «buradayam»
deyə cavab verdi. 5 Sonra da Elinin yanına
qaçıb «məni çağırdın, mən buradayam» dedi.
Amma Eli «mən çağırmamışam, get yat» deyə
cavab verdi. Şamuel gedib yatdı. 6 Rəbb
«Şamuel!» deyə yenidən çağırdı. Şamuel yenə
qalxıb Elinin yanına getdi və «Məni çağırdın?
Mən buradayam!» dedi. Eli yenə də «mən
çağırmadım oğlum, get yat» deyə cavab verdi.
7 Şamuel Rəbbi hələ tanımırdı və Rəbbin sözü
ona açılmamışdı. 8 Rəbb üçüncü dəfə Şamueli
çağırdı və Şamuel yenə qalxaraq Elinin
yanına gedib dedi: «Bax buradayam, məni sən

***2:26*** *– Sül. 3:4; Luk. 2:52*
***2:28*** *– Çıx. 28:1-4*
***2:28*** *– Lev. 7:35-36*

çağırdın». O anda Eli anladı ki, gənc Şamueli
çağıran Rəbdir. 9 Buna görə də Şamuelə dedi:
«Get uzan, yenə səni çağırarsa, belə deyərsən:
"Danış, ya Rəbb, qulun Səni eşidir"». Şamuel
gedib yerində yatdı.
10 Rəbb gəlib orada durdu və əvvəlki kimi
«Şamuel! Şamuel!» deyə çağırdı. Şamuel dedi:
«Danış, ya Rəbb, qulun Səni eşidir». 11 Rəbb
Şamuelə belə dedi: «Bax İsraildə elə bir iş
görəcəyəm ki, eşidənin qulaqları
cingildəyəcək. 12 Həmin gün Elinin evi
haqqında dediklərimin hamısını əvvəldən
axıra qədər yerinə yetirəcəyəm. 13 Çünki ona
çatdırmışdım ki, özü bildiyi günahlarına görə
onun evini əbədi məhkum edəcəyəm. Oğulları
özlərini alçaltdılar. Eli isə onların qarşısını
almadı. 14 Buna görə də and içmişəm ki,
Elinin ailəsinin günahı heç vaxt nə qurban, nə
də başqa təqdimlərlə bağışlanmayacaq».
15 Şamuel səhərə qədər uzandı, sonra
Rəbbin ibadətgahının qapılarını açdı. Eşitdiyi
görüntünü isə Eliyə bildirməyə qorxdu.
16 Amma Eli onu «Şamuel, oğlum» deyə
səslədi. Şamuel cavab verib dedi: «Bəli,
buradayam». 17 Eli ondan soruşub dedi: «Rəbb
sənə nə dedi? Rica edirəm, məndən gizlətmə.
Əgər sənə dediklərindən birini belə, məndən
gizlətsən, Allah sənə beləsini və bundan
betərini etsin». 18 Bundan sonra Şamuel heç nə
gizlətmədi və ona hər şeyi danışdı. Eli də dedi:
«O, Rəbdir, gözündə nə xoşdursa, onu da
etsin».
19 Şamuel böyüdü. Rəbb onunla idi və Rəbb
onun sözlərindən heç birini boşa çıxartmadı.
20 Rəbbin Şamueli peyğəmbər kimi təsdiq
etdiyini Dandan Beer-Şevaya qədər bütün
İsrail bildi. 21 Rəbb yenə Şiloda görünməyə
başladı. O özünü Şamuelə kəlamı ilə
göstərmişdi.

### *Əhd sandığının ələ keçməsi*

4 1 Şamuelin sözü bütün İsrailə
yayılmışdı. O dövrdə İsraillilər
Filiştlilərə qarşı döyüşmək üçün çıxdılar.
2 İsraillilər Even-Ezerdə, Filiştlilər isə Afeqdə
ordugah qurdular. Filiştlilər İsraillilərlə
döyüşmək üçün düzüldülər. Döyüş qızışanda
İsraillilər Filiştlilərə məğlub oldular və döyüş
meydanında dörd minə yaxın İsrailli qırıldı.
3 Xalq ordugaha qayıdarkən İsrail ağsaqqalları
bir-birindən soruşdu: «Görəsən Rəbb bu gün
bizi Filiştlilər qarşısında nə üçün məğlub etdi?
Şilodan Rəbbin Əhd sandığını yanımıza
gətirək. Qoy aramızda olsun və bizi
düşmənlərin əlindən qurtarsın». 4 Xalq Şiloya
adam göndərdi. Keruvlar arasında taxt
qurmuş Ordular Rəbbinin Əhd sandığını
oradan gətirdilər. Elinin iki oğlu Xofni və
Pinxas Allahın Əhd sandığının yanında idi.
5 Rəbbin Əhd sandığı ordugaha çatan kimi
bütün İsraillilər var gücləri ilə elə qışqırdılar
ki, yer titrədi. 6 Bu qışqırığın gurultusunu
eşidərkən Filiştlilər belə dedilər: «İbranilərin
ordugahında niyə belə böyük qışqırıq və
gurultu var?» Ordugaha Rəbbin sandığının
gəldiyini bildikdə 7 Filiştlilər qorxub dedilər:
«Ordugaha allahlar gəlib, vay halımıza!
Çünki bundan əvvəl belə bir şey olmamışdır.
8 Vay halımıza! Bu qüdrətli allahların əlindən
bizi kim qurtaracaq? Səhrada Misirlilərə hər
cür bəlalar verən allahlar bunlardır. 9 Ey
Filiştlilər, cəsur olun, kişi kimi dayanın!
Yoxsa İbranilər sizə necə boyun əydilərsə, siz
də onlara elə boyun əyəcəksiniz! Kişi kimi
dayanın və döyüşün!»
10 Filiştlilər vuruşdular. İsraillilər məğlub
oldu və hamısı öz çadırına qaçdı. Çox böyük
qırğın oldu və İsraillilərdən otuz min piyada
həlak oldu. 11 Allahın sandığı ələ keçirildi və
Elinin iki oğlu – Xofni ilə Pinxas öldü.

### *Elinin ölümü*

12 Bir nəfər Binyaminli döyüş yerindən
qaçaraq elə həmin gün gəlib Şiloya çatdı.
Onun paltarı cırılmış, başı toz-torpaq içində
idi. 13 Budur, o gələn zaman Eli kürsü üstündə
oturub yol kənarında gözləyir və Allahın
sandığından ötrü ürəyi çırpınırdı. Bu adam
şəhərə girib baş verən hadisələri danışanda
bütün şəhər şivən qopardı. 14 Eli bu səsi
eşidəndə «Bu nə səs-küydür?» deyə soruşdu.
Bu adam tez gəlib hər şeyi Eliyə danışdı. 15 Eli
doxsan səkkiz yaşında idi, artıq gözləri
tutulmuşdu, görmürdü. 16 Həmin adam Eliyə
dedi: «Mən döyüş meydanından gəlirəm. Bu
gün döyüşdən qaçmışam». Eli soruşdu:
«Oğlum, nə baş verib?» 17 Xəbər gətirən adam
belə cavab verdi: «İsraillilər Filiştlilərin
qabağından qaçdılar və xalq arasında böyük
qırğın oldu. İki oğlun Xofni ilə Pinxas ölmüş,
Allahın sandığı isə ələ keçirilmişdir». 18 Bu
adam Allahın sandığından danışan zaman Eli
kürsüdən arxaya – qapının yanına yıxıldı;

---

*4:4* – *Çıx. 25:22*

həm qoca, həm də kök olduğu üçün boynu
qırıldı və öldü. O, qırx il İsrail xalqına
hakimlik etmişdi.
19 Elinin gəlini – Pinxasın arvadı hamilə idi.
Doğuş vaxtı çatmışdı. Allahın sandığının ələ
keçirildiyini, qayınatası ilə ərinin ölüm
xəbərini eşidərkən onun ağrısı tutdu və
çömbəlib doğdu. 20 Ölüm ayağında ona kömək
edən qadınlar dedilər: «Qorxma, bir oğlun
oldu». O isə bunu əhəmiyyətsiz bir şey
saydığı üçün cavab vermədi. 21 Çünki Allahın
sandığı ələ keçmiş, qayınatası ilə əri ölmüşdü.
Buna görə də «İsrail şərəfdən düşdü» deyərək
körpəsinin adını İkavod qoydu. 22 O dedi:
«Allahın sandığı ələ keçirildi, İsrail şərəfdən
düşdü».

### *Allahın Filiştlilərə qəzəbi*

5 1 Filiştlilər Allahın sandığını ələ keçirib
Even-Ezerdən Aşdoda apardılar. 2 Allahın
sandığını Daqonun mə'bədinə aparıb
Daqonun heykəlinin yanına qoydular. 3 Ertəsi
gün Aşdodlular erkən duranda Daqonu
Rəbbin sandığının önündə üzüstə yerə
düşmüş gördülər. Onlar Daqonu götürüb öz
yerinə qoydular. 4 Amma ertəsi gün səhər
erkən durduqları vaxt gördülər ki, Daqon yenə
Rəbbin sandığının önündə üzüstə yerə
düşmüşdür. Bu dəfə isə Daqonun başı ilə iki
əli qırılıb, kandarın üstünə düşmüş və yalnız
gövdəsi qalmışdı. 5 Daqonun kahinləri də,
Aşdoddakı Daqon mə'bədinə gələnlər də buna
görə bu günə qədər bu mə'bədin qapısı ağzına
ayaq basmırlar.
6 Rəbbin əli Aşdodlular üzərində ağırlaşdı.
Onlara və ətrafındakı camaata bəla verib
bədənlərinə şişlər çıxartdı. 7 Aşdodlular
vəziyyətin belə olduğunu görəndə dedilər:
«Qoy İsrail Allahının sandığı bizim
yanımızda qalmasın, çünki Onun əli bizim və
allahımız Daqonun üzərində ağır oldu». 8 Ona
görə də hər tərəfə qasidlər göndərərək bütün
Filiştlilərin ağalarını yanlarına toplayıb
soruşdular: «İsrail Allahının sandığını nə
edək?» Filiştlilərin ağaları isə dedilər: «İsrail
Allahının sandığı Qata aparılsın». Beləliklə,
İsrail Allahının sandığını Qata apardılar.
9 Onlar sandığı Qata gətirəndən sonra Rəbbin
əli bu şəhərin üstündə də ağırlaşdı. Şəhəri
dəhşətli qorxu bürüdü, böyükdən-kiçiyə qədər
şəhər sakinlərinin hamısına zərbə dəydi.
Onların da bədənlərinə şiş çıxdı. 10 Bu
hadisədən sonra Allahın sandığını Eqrona
göndərdilər. Allahın sandığı Eqrona çatanda
Eqronlular fəryad qoparıb dedilər: «Bizi və
xalqımızı öldürmək üçün İsrailin Allahının
sandığını bura gətirdilər!» 11 Ona görə də hər
tərəfə qasidlər göndərib bütün Filiştlilərin
ağalarını yanlarına toplayaraq dedilər: «İsrail
Allahının sandığını göndərin getsin yerinə,
qoy bizi və xalqımızı qırmasın». Çünki bütün
şəhəri ölüm vahiməsi bürümüşdü və Allahın
əli ora üçün də çox ağır olmuşdu. 12 Sağ
qalanların da bədənlərinə şiş çıxdı və şəhərin
fəryadı ərşə qalxdı.

### *Əhd sandığının İsrailə qaytarılması*

6 1 Rəbbin sandığı Filiştlilərin diyarında
yeddi ay qaldı. 2 Filiştlilər kahinlərlə
falçıları çağırıb dedilər: «Bu Rəbbin sandığını
nə edək? Onu öz yerinə necə qaytarmağı bizə
başa salın». 3 Kahinlər və baxıcılar dedilər:
«İsrail Allahının sandığını geri göndərmək
istəyirsinizsə, boş göndərməyin. Ona mütləq
təqsir təqdimi verməlisiniz. O zaman
sağalacaqsınız və O sizdən nə üçün əl
çəkmədiyini bildirəcək». 4 Filiştlilər
soruşdular: «Ona göndərəcəyimiz təqsir
təqdimi nə olmalıdır?» Kahinlər və baxıcılar
belə cavab verdi: «Filiştlilərin ağalarının
sayına görə beş qızıl şiş surəti ilə beş qızıl
siçovul surəti düzəldib göndərin. Çünki bu
bəla həm sizin, həm də ağalarınızın
üstündədir. 5 Ona görə də həm şişlərinizin,
həm də ölkənizi dağıdan siçovulların
surətlərini yaradın və İsrailin Allahını
şərəfləndirin. Bəlkə O sizin, allahlarınızın və
torpağınızın üstündə əlini yüngülləşdirdi.
6 Misirlilərlə fir'onun ürəyi inadkarlıq etdiyi
kimi nə üçün sizin də ürəkləriniz inadkarlıq
edir? Allah onlarla sərt davrananda İsraillilər
azad buraxmadılarmı? 7 İndi isə bir təzə araba
düzəldin və boyunduruğa qoşulmayan iki
sağmal inəyi arabaya qoşun. Balalarını isə
onlardan ayırıb evə göndərin. 8 Rəbbin
sandığını götürüb arabaya qoyun və təqsir
təqdimi olaraq Ona ödəyəcəyiniz qızıl
əşyaları isə bir mücrü içərisində sandığın
yanına qoyun, sonra da yola salın getsin.
9 Amma baxın, onlar sandığın olduğu torpağa
– Bet-Şemeş yoluna qalxarlarsa, deməli bu
böyük bəlanı bizə verən Odur. Yox, əgər
oraya getməzlərsə, onda biləcəyik ki, bizi
vuran Onun əli deyil və bu qəza başımıza
təsadüfən gəlmişdir».

10 Adamlar belə də etdilər. İki sağmal inək
gətirib arabaya qoşdular və balalarını da evdə
bağladılar. 11 Rəbbin sandığı ilə bərabər
içərisində siçovulların və şişlərin qızıl
surətləri yığılmış mücrünü də arabaya
qoydular. 12 İnəklər birbaşa Bet-Şemeşə gedən
yolla sağa-sola dönmədən, böyürə-böyürə
getdilər. Filiştlilərin ağaları isə onları Bet-
Şemeş sərhədinə qədər ötürdülər.
13 O zaman Bet-Şemeşlilər zəmidə buğda
biçirdilər. Onlar başlarını qaldırıb sandığı
görəndə sevindilər. 14 Araba Bet-Şemeşli
Yeşuanın zəmisinə girib böyük bir daşın
yanında dayandı. Bet-Şemeşlilər arabanın
ağaclarını qırdılar, inəkləri isə Rəbbə
yandırma qurbanı verdilər. 15 Levililər Rəbbin
sandığını və onun yanındakı qızıl əşyalar
yığılmış mücrünü arabadan endirib böyük bir
daşın üstünə qoydular. O gün Bet-Şemeşlilər
Rəbbə yandırma qurbanı verib başqa
qurbanlar da kəsdilər. 16 Filiştlilərin beş ağası
bu hadisəni gördükdən sonra həmin gün
Eqrona qayıtdı.
17 Filiştlilərin təqsir təqdimi olaraq Rəbbə
gətirdikləri qızıl şişlərin hər biri Aşdod,
Qəzzə, Aşqelon, Qat, Eqron üçün olub bu
şəhərlərin sayına görə idi. 18 Qızıl siçovullar
isə qala divarlı şəhərlərlə ətraf kəndlər də
daxil olmaqla beş ağaya məxsus Filişt
şəhərlərinin sayına görə beş dənə idi. Bet-
Şemeşli Yeşuanın zəmisində Rəbbin sandığı
qoyulan böyük daş bu günə qədər şahid kimi
qalmaqdadır. 19 Rəbbin sandığının içinə
baxdıqları üçün Allah Bet-Şemeşliləri də
vurdu və əlli ailədən yetmiş nəfəri[4] öldürdü.
Xalq isə Rəbbin onların başına gətirdiyi
müsibətə görə yas tutdu. 20 Bet-Şemeşlilər
dedilər: «Bu müqəddəs Allah olan Rəbbin
qarşısında kim dayana bilər? Bizdən sonra
kimin yanına gedəcək?» 21 Sonra Qiryat-
Yearim əhalisinə qasidlər göndərib dedilər:
«Filiştlilər Rəbbin sandığını geri qaytardılar,
gəlin onu aparın».

### *Şamuelin İsrailə hakimlik etməsi*

7 1 Qiryat-Yearim əhalisi gəlib Rəbbin
sandığını apardı. Onu təpədə olan
Avinadavın evinə çıxartdı və oğlu Eleazarı
Rəbbin sandığına nəzarətçi tə'yin etdi.
2 Sandıq Qiryat-Yearimə gələn gündən çox
vaxt keçdi: iyirmi il tamam oldu. Bütün İsrail
xalqı Rəbbin intizarını çəkirdi.
3 Şamuel bütün İsraillilərə müraciət edib
dedi: «Əgər bütün qəlbinizlə Rəbbə
dönürsünüzsə, yad allahları, Aştoret bütlərini
atıb ürəyinizi Rəbbə verin və yalnız Ona
qulluq edin. Sizi Filiştlilərin əlindən O
qurtaracaq». 4 O zaman İsrail övladları Baal
bütlərini və Aştoret bütlərini rədd edib yalnız
Rəbbə qulluq etdilər.
5 Şamuel dedi: «Bütün İsraillilləri Mispaya
toplayın və mən sizə görə Rəbbə
yalvaracağam». 6 Onlar Mispaya toplaşdılar,
su çəkib Rəbbin önünə tökdülər və o gün
orada oruc tutub dedilər: «Rəbbə qarşı günah
işlətmişik». Şamuel Mispada İsraillilərə
hakimlik edirdi.
7 İsrail övladlarının Mispada toplandığını
Filiştlilər eşidəndə Filiştlilərin ağaları
İsraillilərə qarşı çıxdılar. Bunu eşidən İsrail
övladları Filiştlilərdən qorxdu. 8 Ona görə də
İsrail övladları Şamuelə dedilər: «Bizi
Filiştlilərin əlindən qurtarmaq üçün Allahımız
Rəbbə durmadan yalvar». 9 Şamuel bir əmlik
quzu götürərək onu bütövlüklə Rəbbə
yandırma qurbanı verdi və o, İsrail üçün
Rəbbə yalvardı. Rəbb Şamuelə cavab verdi.
10 Şamuel yandırma qurbanı verərkən
Filiştlilər İsrailə hücum etmək üçün
yaxınlaşdılar. Rəbb o gün güclü səslə gurlayıb
Filiştlilərin üzərinə vəlvələ saldı və onları
İsrailin önündə məğlub etdi. 11 İsraillilər
Mispadan çıxıb Bet-Kar altına çatana qədər
Filiştliləri qovaraq qırdılar.
12 Sonra Şamuel bir daş götürüb Mispa ilə
Şen arasına qoydu və «Rəbb bizə buraya
qədər kömək etdi» deyərək bu daşı Even-
Ezer[5] adlandırdı.
13 Məğlubiyyətə uğrayan Filiştlilər bir daha
İsrail torpağına gəlmədi. Şamuelin bütün
ömrü boyu Rəbbin əli Filiştlilərə qarşı oldu.
14 Filiştlilər Eqrondan Qata qədər İsraildən
aldıqları şəhərləri geri qaytardılar. Bundan
əlavə, İsrail ətrafındakı torpaqları da
Filiştlilərin əlindən aldı və İsraillilərlə
Emorluların arasında sülh yarandı.
15 Şamuel ömrü boyu İsrailə hakimlik etdi.
16 O, ilbəil, növbə ilə Bet-Eli, Qilqalı, Mispanı
gəzir və bu yerlərdə İsrailə hakimlik edirdi.

---

[4] **6:19** *Əlli ailədən yetmiş nəfəri* yaxud *əlli min yetmiş nəfər.*
*7:1 – 2Şam. 6:2-4; 1Saln. 13:5-7*

[5] **7:12** *Even-Ezer* – ibrani dilində *kömək daşı.*

17 Sonra isə Ramaya qayıdardı, çünki evi
orada idi. Oradan da İsrailə hakimlik edirdi. O
həmin yerdə Rəbbə bir qurbangah tikdi.

### *İsrail xalqının padşah istəməsi*

8 1 Şamuel qocalanda oğullarını İsrailə
hakim etdi. 2 Onun ilk oğlunun adı Yoel,
ikincisinin adı isə Aviya idi. Onlar Beer-
Şevada hakim idilər. 3 Oğulları onun yolu ilə
getməyib şərəfsiz qazanc ardınca düşdülər və
rüşvət alıb düzgün olmayan hökmlər
verirdilər.
4 Bütün İsrail ağsaqqalları yığılıb Ramaya –
Şamuelin yanına gəldilər. 5 Ona dedilər: «Bax
sən qocasan və oğulların sənin yolunla getmir.
İndi isə digər millətlərdə olduğu kimi bizə bir
padşah tə'yin et ki, bizə hökmranlıq etsin».
6 Lakin Şamuel «bizə bir padşah tə'yin et ki,
hökmranımız olsun» deyilən zaman bu
sözlərdən narazı qaldı və Rəbbə dua etdi.
7 Rəbb Şamuelə dedi: «Sənə dedikləri
məsələlərlə əlaqədar xalqın hər sözünə qulaq
as, çünki rədd etdikləri sən deyilsən, onlar
üzərində hökmranlıq etməyim deyə, yalnız
Məni rədd edirlər. 8 Onları Misirdən
çıxartdığım gündən bu günə qədər yad
allahlara qulluq etməklə Məni tərk edirlər.
Mənə etdiklərini indi eyni şəkildə sənə edirlər.
9 Sən onların sözlərinə qulaq as, amma açıqca
xəbərdarlıq et ki, onlara hökmdarlıq edəcək
padşahın hakimiyyəti necə olacaq».
10 Şamuel ondan padşah istəyən xalqa
Rəbbin bütün sözlərini söylədi. 11 O dedi:
«Sizə hökmdarlıq edəcək padşahın
hökmranlığı belə olacaq: oğullarınızı döyüş
arabaları və süvari qoşununda xidmət etmək
üçün aparacaq və döyüş arabalarının
qabağında qaçıracaq. 12 Onlardan bə'zilərini
minbaşı və əllibaşı tə'yin edəcək, bə'zilərinə
torpaqlarını şumladacaq və əkinini biçdirəcək,
bə'zilərini isə hərbi sursat və döyüş
arabalarına ləvazimat hazırlamaq üçün
işlədəcək. 13 Qızlarınızı ətir düzəltmək, aşpaz
və çörəkçi işlətmək üçün aparacaq. 14 Ən
yaxşı tarlalarınızı, üzüm və zeytun bağlarınızı
alıb ə'yanlarına verəcək. 15 Taxıllarınızın və
üzümlüklərinizin məhsullarından onda birini
alıb xadimlərinə və ə'yanlarına verəcək.
16 Qullarınızla qaravaşlarınızı, ən seçmə
cavanlarınızı və eşşəklərinizi götürüb öz
işində işlədəcək. 17 Sürülərinizin onda birini
özünə götürəcək və siz onun qulu olacaqsınız.
18 Gün gələcək ki, seçdiyiniz padşahın əlindən
fəryad edəcəksiniz, amma o vaxt Rəbb sizə
cavab verməyəcək».
19 Xalq isə Şamuelin sözünə qulaq asmaq
istəməyib dedi: «Yox, mütləq üzərimizdə bir
padşah olsun. 20 Başqa millətlərdə olduğu
kimi bizə də padşahımız hökmranlıq etsin,
qabağa düşüb döyüşlərimizə başçılıq etsin».
21 Şamuel xalqın hər sözünü dinləyib Rəbbə
söylədi. 22 Rəbb Şamuelə belə dedi: «Onların
sözlərinə qulaq as və bir padşah tə'yin et».
Şamuel İsraillilərə «hər kəs öz şəhərinə
qayıtsın» dedi.

### *Şaulun padşahlığa seçilməsi*

9 1 Binyamindən Afiah oğlu Bekorat
oğlu Seror oğlu Aviel oğlu Qiş adlı bir
adam var idi. Binyaminli bu adam cəsur
cəngavər idi. 2 Onun Şaul adlı gənc, yaraşıqlı
oğlu var idi və İsrail övladları arasında ondan
yaraşıqlısı yox idi. O, xalqın hamısından bir
çiyin hündür idi.
3 Şaulun atası Qişin eşşəkləri itmişdi. Qiş
oğlu Şaula dedi: «Qalx nökərlərdən birini
yanına al, get, eşşəkləri axtar». 4 Onlar
Efrayimin dağlıq bölgəsini gəzdilər və Şalişa
diyarından keçdilər, lakin eşşəkləri tapa
bilmədilər. Şaalim diyarını dolandılar,
eşşəklər orada da yox idi. Sonra Binyamin
torpağını gəzdilər, lakin eşşəkləri tapa
bilmədilər. 5 Bundan sonra Suf bölgəsinə
gəldilər və Şaul yanındakı nökərinə dedi:
«Gəl qayıdaq, yoxsa atam eşşəkləri yaddan
çıxarıb bizim üçün narahat olacaq». 6 Nökəri
isə ona dedi: «Bax bu şəhərdə bir Allah adamı
var. O, möhtərəm bir adamdır və nə deyirsə,
hamısı mütləq doğru çıxır. Gəl oraya gedək,
bəlkə bizə gedəcəyimiz yolu o göstərdi».
7 Şaul nökərinə dedi: «Əgər getsək, o adama
nə aparaq? Artıq torbalarımızda çörək
qurtarmış və Allah adamına vermək üçün bir
hədiyyəmiz belə, yoxdur. Axı nəyimiz var?»
8 Nökər Şaula cavab olaraq belə dedi: «Bax
əlimdə dörddə bir şekel gümüş var. Mən onu
Allah adamına verərəm, qoy o bizə yolumuzu
göstərsin». 9 Əvvəllər İsraildə Allahın
iradəsini öyrənmək üçün gedəndə adamlar
belə deyərdilər: «Gəl görücünün yanına
gedək». O vaxt peyğəmbərləri görücü
adlandırırdılar. 10 Şaul isə nökərinə dedi:
«Yaxşı deyirsən, gəl gedək». Onlar Allah
adamının olduğu şəhərə getdilər.

---

*8:5 – Qanun. 17:14*

[11] Yoxuşdan şəhərə qalxanda su çəkmək
üçün şəhərdən çıxan gənc qızlara rast gəldilər
və onlara dedilər: «Görücü buradadırmı?»
[12] Onlara cavab verdilər: «Buradadır, sizdən
qabaqdadır. Tələsin, elə bu gün şəhərə gəlib,
çünki xalq bu gün səcdəgahda qurban kəsəcək.
[13] Şəhərə girən kimi onu yemək üçün
səcdəgaha qalxmazdan əvvəl taparsınız, ona
görə ki o gəlməyincə xalq yeməyə başlamaz.
O, qurbana xeyir-dua verəndən sonra
çağırılanlar yeyər. Tez qalxsanız, ona
çatarsınız». [14] Onlar şəhərə qalxdılar. Şaul da
təpədə yerləşən şəhərin mərkəzinə çatanda
Şamuellə rastlaşdı, çünki o da səcdəgaha
çıxırdı.

[15] Şaul gəlməmişdən bir gün əvvəl Rəbb
Şamuelə bunu bildirərək qulağına demişdi:
[16] «Sabah bu vaxtlar sənin yanına Binyamin
torpağından bir adam göndərəcəyəm və onu
Mənim xalqım İsraillilərə başçı olaraq məsh
edəcəksən. Filiştlilərin əlindən xalqımı o
qurtaracaq, çünki xalqımın halına yanıram.
Ona görə ki fəryadı gəlib Mənə çatdı».

[17] Şamuel Şaulu görəndə Rəbb ona dedi:
«Bax sənə dediyim bu adam xalqıma
hökmranlıq edəcək». [18] Şaul darvazada
Şamuelə yaxınlaşıb dedi: «Rica edirəm,
görücünün evinin harada olduğunu mənə
göstərəsiniz». [19] Şamuel Şaula cavab verdi:
«Görücü mənəm, qarşımca səcdəgaha qalx.
Bu gün mənimlə bərabər yemək yeyəcəksiniz,
sabah açılanda isə ürəyində olanların hamısını
sənə bildirib yola salaram. [20] Üç gün əvvəl
itən eşşəklərinə gəlincə, onların fikrini çəkmə,
artıq tapılıblar. Bütün İsrail nəyin
həsrətindədir? Bu sənə və ata nəslinə aid
deyilmi?» [21] Şaul cavab verdi: «Mən İsrail
qəbilələrinin ən kiçiyi olan Binyamindən
deyiləmmi? Nəslim isə Binyamin qəbiləsinin
nəsillərinin ən kiçiyi deyilmi? Axı nə üçün
mənə belə söz söyləyirsiniz?»

[22] Şamuel Şaul ilə nökəri götürüb otağa
apardı və otuz nəfərə qədər çağırılmış
adamların arasında baş tərəfdə ona yer verdi.
[23] Şamuel aşpaza dedi: «“Bir yana ayrı qoy”
deyib sənə verdiyim payı bura gətir!» [24] Aşpaz
yağlı budu Şaulun qarşısına qoydu. Şamuel
dedi: «Buyur ye, bu sənin üçün ayrılan paydır,
bunu sənin üçün saxladım ki, tə’yin etdiyim
gün çağırdığım xalqla birlikdə yeyəsən». O
gün Şaul Şamuellə birlikdə yemək yedi.

[25] Onlar səcdəgahdan şəhərə endilər,
Şamuel Şaula evin damında söhbət etdi.
[26] Onlar erkən qalxdılar. Dan yeri söküləndə
damdan Şamuel Şaulu çağırıb dedi: «Dur,
səni yola salım». O da qalxıb Şamuellə
birlikdə bayıra çıxdı. [27] Onlar şəhər kənarına
enərkən Şamuel Şaula dedi: «Nökərə de ki,
qabaqda getsin». Nökər qabağa keçdi.
«Amma sən indi ayaq saxla, qoy Allahın
sözünü sənə bildirim».

### *Şaulun padşahlığa məsh olunması*

10 [1] Şamuel bir qab zeytun yağı
götürüb Şaulun başına tökdü və onu
öpərək dedi: «Rəbb səni Öz irsi olan İsrail
üzərində başçı olmaq üçün məsh etdi, elə
deyilmi? [2] Bu gün məndən ayrılandan sonra
Binyamin torpağında, Selsahda olan
Rəhilənin məzarı yanında iki adama rast
gələcəksən və onlar sənə deyəcək:
“Axtarmağa getdiyin eşşəklər tapılıb. Artıq
atan eşşəkləri unudub sizin dərdinizi çəkərək
deyir: ‹Oğluma görə nə edim?›” [3] Oradan da
irəli keçib Tavordakı palıd ağacının yanına
çatacaqsan və həmin yerdə səni Bet-Elə –
Allahın hüzuruna çıxan üç adam qarşılayacaq.
Onlardan biri üç oğlaq, o biri üç kömbə çörək,
biri də bir tuluq şərab aparacaq. [4] Onlar səni
salamlayaraq iki kömbə çörək verəcəklər. Sən
də o çörəkləri onlardan alacaqsan. [5] Bundan
sonra Filişt keşik dəstəsinin olduğu yerə –
Giveat-Elohimə çatacaqsan. Şəhərə girən
zaman orada səcdəgahdan enən bir
peyğəmbər dəstəsinə rast gələcəksən. Onların
qarşılarında çəng, dəf, ney, lira çalınacaq və
onlar peyğəmbərlik edəcək. [6] Onda Rəbbin
Ruhu üzərinə qüvvə ilə enəcək və sən də
onlarla birgə peyğəmbərlik edəcəksən və
dönüb tamam başqa bir adam olacaqsan. [7] Bu
əlamətlər səndə baş verəndə vəziyyətə uyğun
hərəkət et, çünki Allah səninlədir. [8] Sən
məndən əvvəl Qilqala enəcəksən, mən də
yandırma qurbanları təqdim etmək və
ünsiyyət qurbanları kəsmək üçün oraya
enəcəyəm. Amma mən yanına gəlib nə
edəcəyini sənə bildirənədək yeddi gün
gözləməli olacaqsan».

[9] Şaul Şamuelin yanından yola düşmək
üçün çevriləndə Allah onun ürəyini dəyişdirdi
və bütün bu əlamətlər o gün yerinə yetdi.
[10] Oradan Giveaya gedərkən onları bir
peyğəmbər dəstəsi qarşıladı və Allahın Ruhu
Şaulun üstünə qüvvə ilə endi. Onların

arasında Şaul da peyğəmbərlik etməyə başladı.
11 Əvvəldən onu tanıyan camaatın hamısı
onun peyğəmbərlik etdiyini görəndə bir-birinə
belə dedi: «Qişin oğluna nə olub? Məgər Şaul
da peyğəmbərlərin sırasındadır?» 12 Bir adam
cavab verib dedi: «Görün onların atası
kimdir?» Buna görə də «Məgər Şaul da
peyğəmbərlər sırasındadır?» sözü məsələ
çevrildi. 13 Şaul peyğəmbərlik edəndən sonra
səcdəgaha qalxdı.
14 Şaulun əmisi ondan və nökərindən
soruşdu: «Hara getmişdiniz?» Şaul dedi:
«Eşşəkləri axtarmağa getmişdik, amma
gördük ki, tapa bilmirik, ona görə də
Şamuelin yanına getdik». 15 Şaulun əmisi dedi:
«Rica edirəm, Şamuelin sənə nə dediyini
mənə danış». 16 Şaul əmisinə dedi:
«Eşşəklərin tapıldığını bizə aydın bildirdi».
Lakin padşahlıq haqqında Şamuelin sözünü
əmisinə danışmadı.
17 Şamuel xalqı Rəbbin önünə – Mispaya
çağırdı. 18 O, İsrail övladlarına dedi: «İsrailin
Allahı Rəbb belə deyir: "İsraili Misirdən Mən
çıxartdım. Misirlilərin və sizə zülm edən
bütün səltənətlərin əlindən sizi Mən azad
etdim". 19 Lakin bəlalarınızdan və
müsibətlərinizdən sizi qurtaran Allahınızı bu
gün rədd etdiniz və Ona "üzərimizə bir
padşah qoy" dediniz. İndi isə qəbilələrinizə və
nəsillərinizə görə Rəbbin hüzurunda durun».
20 Şamuel İsrailin bütün qəbilələrini bir-bir
qabağa çıxartdı, Binyamin qəbiləsi püşk ilə
seçildi. 21 Sonra Binyamin qəbiləsini
nəsilbənəsil qabağa çıxartdı. Püşk Matri
nəslinə düşdü. Nəhayət Qiş oğlu Şaul seçildi.
Lakin onu axtarıb tapa bilmədilər. 22 Yenə
Rəbdən soruşdular: «O buraya hələ
gəlməyibmi?» Rəbb dedi: «Odur, yüklərin
arasında gizlənib». 23 Qaçıb Şaulu oradan
gətirdilər. Xalq arasında duran zaman Şaul
xalqın hamısından bir çiyin hündür görünürdü.
24 Şamuel bütün xalqa dedi: «Rəbbin seçdiyi
bu xalqın arasında bənzəri olmayan adamı
görürsünüzmü?» O zaman xalq bir səslə
qışqırıb dedi: «Yaşasın padşah!»
25 Şamuel padşahlıq qaydalarını xalqa
söylədi və kitaba yazıb Rəbbin önünə qoydu.
Sonra Şamuel bütün xalqı evinə göndərdi.
26 Şaul da Giveaya, öz evinə qayıtdı və
qəlblərində Allahın oyanış yaratdığı igidlər
onunla bərabər getdilər. 27 Bə'zi yaramaz
adamlar isə belə dedilər: «Bu adam bizi necə
qurtaracaq?» Ona xor baxıb hədiyyə
göndərmədilər. Şaul isə buna susdu.

### *Şaulun Ammonluları məğlubiyyətə uğratması*

11 1 Ammonlu Naxaş gəlib Yaveş-
Gileada qarşı ordugah qurdu. Bütün
Yaveş əhalisi Naxaşa dedi: «Bizimlə saziş
bağla, biz də sənə qulluq edək». 2 Ammonlu
Naxaş isə onlara dedi: «Bu şərtlə sizinlə
razılığa gələrəm ki, hər birinizin sağ gözünü
çıxarıb bütün İsraili rüsvay edim». 3 Yaveş
ağsaqqalları ona dedilər: «Bizə yeddi gün
möhlət ver ki, İsrailin bütün ərazisinə qasidlər
göndərək və əgər bizi heç kim xilas edə
bilməsə, sənə təslim olarıq».
4 Qasidlər Şaulun Givea şəhərinə gəldilər və
xalq arasında bu sözləri car çəkdilər. Bütün
xalq da şivən qoparıb ağladı. 5 Bu vaxt Şaul
öküzlərin arxasınca tarladan gəlirdi. O dedi:
«Xalqa nə olub ki, ağlayır?» Ona Yaveşlilərin
sözünü çatdırdılar.
6 Həmin sözləri eşidən zaman Allahın Ruhu
Şaulun üstünə qüvvə ilə endi, qəzəbindən od
tutub yandı. 7 O, bir cüt öküzünü götürüb
parça-parça doğradı və onları qasidlərin əli ilə
bütün İsrail ərazisinə göndərib dedi: «Kim
Şaulun və Şamuelin ardınca getməsə, bax
öküzləri bu kökə salınacaq». Xalqın arasına
Rəbbin xofu düşdü və hamı bir nəfər kimi
ayağa qalxdı. 8 Şaul onları Bezeqdə saydı:
İsrail övladları üç yüz min və Yəhuda
adamları isə otuz min nəfər oldu.
9 Gələn qasidlərə dedilər: «Yaveş-
Gileadlılara belə deyərsiniz: "Sabah gün
qızınca sizə qurtuluş olacaq"». Qasidlər gedib
bunu Yaveşlilərə bildirdilər və onlar da
sevindilər. 10 Yaveşlilər Ammonlulara dedilər:
«Sabah təslim olacağıq və bizimlə gözünüzdə
xoş görünən kimi rəftar edin».
11 Ertəsi gün Şaul xalqı üç bölməyə ayırdı
və səhər qarovulunda düşmən ordugahının
içinə girərək gün qızana qədər Ammonluları
qırdı. Qalanlar isə elə dağıldılar ki, onlardan
iki nəfər bir yerdə qalmadı. 12 Xalq Şamuelə
dedi: «"Şaulmu üzərimizdə padşah olacaq?"
deyənlər kimlərdir? O adamları verin
öldürək». 13 Şaul isə dedi: «Bu gün heç kəs
öldürülməyəcək, çünki Rəbb bu gün İsrailə
qurtuluş verdi».

***10:12*** *– 1Şam. 19:23-24*

14 Şamuel xalqa dedi: «Gəlin Qilqala gedək
və orada padşahlığı yenidən təsdiq edək».
15 Bütün xalq Qilqala getdi. Orada – Qilqalda
Şaulu Rəbbin önündə padşah olaraq qəbul
etdilər və sonra Rəbbin önündə ünsiyyət
qurbanları kəsdilər. Bütün İsraillilər Şaulla
birgə böyük bayram etdilər.

### *Şamuelin nitqi*

12 1 Şamuel İsraillilərin hamısına dedi:
«Baxın mən dediklərinizə axıradək
qulaq asaraq üzərinizə bir padşah tə'yin etdim.
2 İndi qarşınızda padşah gedir, mən isə
qocalmışam, saçlarım ağarıb. Budur,
oğlanlarım da sizinlədir. Mən də
gəncliyimdən bu günə qədər sizin qarşınızda
getmişəm. 3 Budur, qarşınızdayam, hansınızın
öküzünü almışam? Kimin eşşəyini almışam?
Kimi aldatmışam, kimi incitmişəm və yaxud
kimdən rüşvət alıb haqsız əməlinə göz
yummuşam? Rəbbin və Onun məsh etdiyinin
qarşısında mənə qarşı şəhadət edin ki,
haqqınızı ödəyim». 4 Onlar belə cavab verdilər:
«Sən bizi heç vaxt aldatmamısan,
incitməmisən, heç kimin əlindən də heç nə
almamısan». 5 Şamuel onlara dedi: «Sizə qarşı
əlimdə bir şey tapmadığınıza bu gün Rəbb və
Onun məsh olunmuş padşahı da şahiddir».
Xalq dedi: «Bəli, şahiddir».

6 Şamuel xalqa dedi: «Musanı və Harunu
tə'yin edən, atalarınızı Misir diyarından
çıxaran Rəbdir. 7 İndi isə Rəbbin hüzurunda
dayanın. Rəbbin sizə və atalarınıza etdiyi
bütün haqq işlər barədə sübutlar göstərəcəyəm.
8 Yaqub Misirə gəldi. Sonra atalarınız Rəbbə
fəryad etdilər. Rəbb Musa ilə Harunu
göndərdi ki, atalarınızı Misirdən çıxardıb bu
yerdə məskunlaşdırsın. 9 Lakin onlar özlərinin
Allahı Rəbbi unutdular, Rəbb də onları Xasor
ordusunun başçısı Sisraya, Filiştlilərə və
Moav padşahına təslim etdi. Onlar atalarınıza
qarşı vuruşdular». 10 Xalq Rəbbə fəryadla dedi:
«Rəbbi atıb Baal və Aştoret bütlərinə qulluq
etməklə günah etdik. Ya Rəbb, indi bizi
düşmənlərimizin əlindən qurtar və biz Sənə
qulluq edərik». 11 Rəbb də Yerub-Baalı,
Bedanı, İftahı və Şamueli göndərdi. O sizi
ətrafınızdakı düşmənlərin əlindən qurtardı və
əmin-amanlıqda yaşadınız. 12 Amma siz
Ammon padşahı Naxaşın sizə qarşı gəldiyini
görəndə Rəbb Allahınız sizə padşah ikən
mənə dediniz: «Xeyr, gərək bizə bir padşah
hökmranlıq etsin». 13 İndi isə budur seçdiyiniz
və istədiyiniz padşah! Baxın Rəbb üzərinizə
bir padşah qoydu. 14 Əgər Rəbdən qorxub Ona
qulluq edərək səsinə qulaq assanız, əmrinə
qarşı çıxmasanız, həm sizə hökmranlıq edən
padşahınız, həm də siz Allahınız Rəbbin
ardınca gedəcəksiniz. 15 Yox, əgər Rəbbin
səsinə qulaq asmasanız və Rəbbin əmrinə
qarşı çıxsanız, o zaman Rəbbin əli atalarınıza
qarşı olduğu kimi sizin də əleyhinizə olacaq.

16 İndi isə dayanın, Rəbbin gözünüz önündə
edəcəyi bu böyük hadisəni görün. 17 Bu gün
buğda biçimi deyilmi? Göy gurultusu və yağış
göndərsin deyə Rəbbi çağıracağam, özünüz
üçün padşah istəməklə etdiyiniz pisliyin
Rəbbin gözündə nə qədər böyük olduğunu
dərk edib görəcəksiniz.

18 Şamuel Rəbbi çağırdı və Rəbb o gün göy
gurladıb yağış yağdırdı. Bütün xalq həmin
gün Rəbdən və Şamueldən çox qorxdu.
19 Camaat Şamuelə belə dedi: «Qulların üçün
Allahın Rəbbə yalvar ki, ölməyək, çünki
bütün günahlarımızın üzərinə özümüzə
padşah istəmək təqsirini də əlavə etdik».
20 Şamuel isə xalqa dedi: «Qorxmayın, bu
pisliyi həqiqətən siz etmisiniz, lakin Rəbbin
yolundan dönməyin, bütün qəlbinizlə yalnız
Rəbbə qulluq edin. 21 Dönməyin, çünki o
zaman boş bütlərin ardınca getmiş olacaqsınız,
o bütlər ki fayda verməzlər və xilas etməzlər,
çünki puçdurlar. 22 Amma Rəbb xalqını Öz
böyük ismi naminə atmayacaq, ona görə ki
sizi Öz xalqı etmək Rəbbin xoşuna gəlmişdi.
23 Mənə gəlincə, sizin üçün yalvarmağı
dayandırmaqla Rəbbə qarşı günah etmək qoy
məndən uzaq olsun. Mən sizə xeyirli və haqq
yolunu öyrədəcəyəm. 24 Ancaq Rəbdən
qorxun, Ona sədaqətlə, bütün qəlbinizlə
xidmət edin. Görün sizin üçün necə əzəmətli
işlər görüb. 25 Əgər pislik etməkdə davam
etsəniz, həm siz, həm də padşahınız məhv
olacaq».

---

***12:6*** *– Çıx. 6:26*
***12:8*** *– Çıx. 2:23*
***12:9*** *– Hak. 4:2*
***12:9*** *– Hak. 13:1*
***12:9*** *– Hak. 3:12*
***12:10*** *– Hak. 10:10*
***12:11*** *– Hak. 7:1*
***12:11*** *– Hak. 11:29*
***12:11*** *– 1Şam. 3:20*
***12:12*** *– 1Şam. 8:19*

### *Şaulun itaətsizliyi*

13 1 Şaul padşah olan zaman otuz
yaşında idi və İsrailin üzərində daha
iki il padşahlıq etdikdən sonra 2 o özü üçün üç
min nəfər İsrailli seçdi. Bunlardan iki min
nəfəri Mikmasda və Bet-El təpələrində Şaulun
yanında qaldı, min nəfəri isə Binyaminin
Givea şəhərində Yonatanın yanında saxladı.
Xalqın qalan hissəsini isə Şaul öz evlərinə
göndərdi. 3 Yonatan Gevadakı Filiştlilərin
keşik dəstəsinin əsgərlərini qırdı və bunu
bütün Filiştlilər eşitdilər. Şaul isə İbranilər
eşitsinlər deyə bütün ölkədə şeypur çaldırdı.
4 İsraillilərin hamısı Şaulun Filiştlilərin keşik
dəstəsini qırdığını, Filiştlilərin İsrailə nifrət
etdiyini eşitdi. Xalq Şaulun ətrafında yığılmaq
üçün Qilqala çağırıldı. 5 Filiştlilər İsraillə
vuruşmaq üçün yığıldılar. Otuz min döyüş
arabası, altı min atlı və dənizdəki qum
dənələrinin sayı qədər camaat çıxıb Bet-
Avenin şərqində Mikmasda ordugah qurdu.

6 İsraillilər təhlükə qarşısında olduqlarını
gördülər, çünki xalq sıxışdırıldı, xalq
mağaralarda, kolluqlarda, qayalarda,
məqbərələrdə və nohurlarda gizləndi.
7 İbranilərdən bə’ziləri İordan çayından Qad
və Gilead torpağına keçmişdi, lakin Şaul isə
hələ Qilqalda idi və bütün xalq qorxudan əsə-
əsə onun ardınca gedirdi.

8 Şaul Şamuel tə’yin etdiyi vaxta qədər
yeddi gün gözlədi, lakin Şamuel Qilqala
gəlmədi, ona görə də xalq Şaulun yanından
dağılmağa başladı. 9 Şaul dedi: «Yandırma
qurbanını və ünsiyyət qurbanını yanıma
gətirin». O, yandırma qurbanını təqdim etdi.
10 Yandırma qurbanının təqdimi qurtaranda
Şamuel gəlib çıxdı və Şaul salamlaşmaq üçün
onu qarşılamağa çıxdı. 11 Şamuel dedi: «Sən
nə etmisən?» Şaul isə dedi: «Gördüm ki,
ətrafımdakı xalq dağılır, sən isə tə’yin etdiyin
gün gəlmədin və Filiştlilər Mikmasda
toplanıb. 12 Dedim ki, indi Filiştlilər Qilqala,
üstümə gələcəklər, mən isə hələ Rəbbin
razılığını almamışam. Ona görə də özümü
məcbur edib yandırma qurbanını təqdim
etdim». 13 Şamuel Şaula dedi: «Ağılsızlıq
etdin, Allahın Rəbbin sənə verdiyi əmrə əməl
etmədin. Belə olmasaydı, Rəbb İsrail üzərində
sənin padşahlığını əbədi saxlayacaqdı.
14 Lakin indi padşahlığın davam etməyəcək.
Rəbb Özü üçün Öz ürəyinə yatan bir adam
tapıb. Həmin adamı Rəbb xalqına başçı tə’yin
etdi. Çünki sən Rəbbin verdiyi əmrlərə əməl
etmədin». 15 Bundan sonra Şamuel Qilqalı
tərk edib Binyaminlilərin Givea şəhərinə çıxdı.
Şaul yanında olan xalqı saydı: altı yüz nəfərə
qədər idi.

16 Şaul, oğlu Yonatan və yanında olan xalq
Binyaminlilərin Geva şəhərində qalmaqda idi.
Filiştlilər isə Mikmasda ordugah qurmuşdular.
17 Filişt ordugahından qarətçi hücumçular üç
dəstəyə bölünüb çıxdılar. Bir dəstə Ofra
yoluna – Şual torpağına yönəldi. 18 Digər
dəstə isə Bet-Xoron yoluna, o biri dəstə isə
çölə – Sevoim vadisinə baxan sərhəd yoluna
yönəldi.

19 Bütün İsrail ölkəsində bir nəfər də olsun
dəmirçi yox idi. Filiştlilər demişdilər ki, qoy
İbranilər qılınc, nizə düzəltməsinlər. 20 Bütün
İsraillilər kotanlarını, kərkilərini, baltalarını
və oraqlarını itiləmək üçün Filiştlilərin yanına
gəlirdi. 21 Kotanın, kərkinin itiləmə qiyməti
bir pim[6] idi. Bellər, baltalar, bizlər üçün isə
şekelin üçdə biri qədər gümüş pul alardılar.
22 Ona görə də müharibə zamanı Şaulla
Yonatanın yanında olan xalqın əlində qılınc
və nizə yox idi, bu silahlar ancaq Şaulun və
oğlu Yonatanın əlində olardı.

23 Filiştlilərin keşik dəstəsi Mikmas
keçidinə çıxdı.

### *Yonatanın böyük qələbəsi*

14 1 Bir gün Şaulun oğlu Yonatan
silahdarı olan nökərə dedi: «Gəl qarşı
tərəfdə olan Filiştlilərin keşik dəstəsinə
keçək». Lakin bunu atasına bildirmədi. 2 Şaul
isə Givea kənarında Miqrondakı nar ağacı
altında oturmuşdu, yanındakı xalq altı yüz
nəfərə qədər idi. 3 Şiloda Rəbbin kahini, Eli
oğlu Pinxas oğlu İkavodun qardaşı Axituvun
oğlu Axiya efod geyinmişdi. Yonatanın
getdiyindən xalqın xəbəri yox idi.

4 Filiştlilərin keşik dəstəsinə getmək üçün
Yonatanın keçmək istədiyi keçidlər iki şişuclu
qayalığın arasında idi. Qayalıqlardan birinin
adı Boses, o birinin adı isə Sene idi.
5 Qayalıqlardan biri şimal tərəfdən Mikmasa,
o biri qayalıq isə cənub tərəfdən Gevaya

---

***13:8** – 1Şam. 10:8*

***13:14** – Həv. 13:22*

[6] **13:21** *Pim* – şekelin üçdə ikisi, səkkiz qrama yaxın gümüş pul.

baxırdı. 6 Yonatan silahdarı olan nökərə dedi:
«Gəl bu sünnətsizlərin keşik dəstəsinə keçək,
bəlkə Rəbb bizim üçün bir iş gördü. Çünki
həm çox, həm də az adamların üzərində
qələbə çalmaq üçün Rəbbə mane olan
yoxdur». 7 Silahdarı ona dedi: «Ürəyin necə
istəyirsə, elə də et. Get bax, mən səninləyəm,
çünki ürəyimizin istəyi birdir». 8 Yonatan dedi:
«Gəl bu adamlara tərəf gedib özümüzü onlara
göstərək. 9 Əgər bizə "sizin yanınıza biz
gəlincəyə qədər dayanın" desələr, o zaman
yerimizdə durub onların yanına çıxmarıq.
10 Lakin "yanımıza çıxın", desələr, o zaman
yerimizdən durub onların yanına qalxarıq,
çünki Rəbb onları bizə təslim etmişdir və bu
bizim üçün əlamət olacaq».

11 İkisi də özünü Filiştlilərin keşik dəstəsinə
göstərdi. Filiştlilər isə dedilər: «Bax İbranilər
gizləndikləri deşiklərdən çıxırlar». 12 Əsgərlər
Yonatana və onun silahdarına dedilər:
«Yanımıza çıxın, sizin dərsinizi verək».
Yonatan silahdarına dedi: «Ardımca gəl,
çünki Rəbb onları İsrailə təslim etdi».
13 Yonatan, onun ardınca silahdarı əl və
ayaqları ilə yuxarı dırmaşdılar, Yonatan
Filiştliləri vurub yıxır, arxadan silahdarı
onları öldürürdü. 14 Bu ilk döyüşdə yarım sahə
torpaqda[7] Yonatanla silahdarı iyirmi nəfərə
qədər adamı qırdı. 15 Ordugaha, çölə, bütün
xalq arasına vəlvələ düşdü. Keşikçi əsgərlər
və qarət hücumçuları arasına elə bir çaxnaşma
düşdü ki, yer sarsıldı. Bu, Allah xofu idi.
16 Şaulun Binyamində olan Givea şəhərindəki
gözətçiləri baxanda gördülər ki, Filişt qoşunu
dağılıb ora-bura qaçır.

17 Şaul yanında olan xalqa dedi: «İndi sayın,
görün bizdən kim yoxdur». Saydıqları zaman
Yonatanla silahdarı olmadı. 18 Şaul Axiyaya
dedi: «Allahın sandığını buraya gətirin».
Çünki o vaxtlar Allahın sandığı İsraillilərin
yanında idi.

19 Şaul kahinə bunu deyərkən Filiştlilərin
ordugahından gurultu getdikcə çoxalırdı və
Şaul kahinə «Əl saxla!» dedi. 20 Şaul və
yanında olan bütün xalq yığılıb döyüş
meydanına getdilər. Budur, Filiştlilərdən hər
bir kəs qılıncını öz ətrafındakı qonşusuna
qarşı çıxartdı və çox böyük çaşqınlıq yarandı.

21 Əvvəlcədən Filiştlilər tərəfinə keçən
İbranilər Filiştlilərlə bərabər ordugaha
gəlmişdilər. Onlar da Şaulun və Yonatanın
yanında olan İsraillilərlə birləşdilər.
22 Efrayim dağlıq bölgəsində gizlənən bütün
İsraillilər də Filiştlilərin qaçdığını eşitdikdə öz
döyüş meydanından Filiştliləri qovmağa
başladılar. 23 Beləcə o gün Rəbb İsrailə qələbə
qazandırdı və döyüş Bet-Avendən o tərəfə
keçdi.

24 İsraillilər o gün çox yorulmuşdu. Çünki
Şaul «Axşama qədər, Şaul düşmənlərindən
qisas alana qədər kim çörək yesə, lə'nətə
gəlsin!» deyərək onlara and içdirmişdi.
Xalqdan heç kim dilinə heç nə vurmadı.
25 Bütün xalq meşəyə getdi və torpaq üzərində
olan bal şanısına rast gəldi. 26 Xalq meşədə bal
şanısına rast gələndə şanıdan bal süzülürdü,
lakin heç kəs əlini ağzına aparmırdı, çünki
xalq anddan qorxurdu. 27 Lakin Yonatan
atasının xalqa and içdirdiyini eşitməmişdi. O,
əlindəki dəyənəyi uzadıb ucunu şanı balına
batıraraq əlini ağzına apardı və gözlərinə işıq
gəldi.

28 Camaat arasından bir nəfər dedi: «"Bu
gün kim çörək yesə, lə'nətə gəlsin!" deyə atan
xalqa möhkəm and içdirmiş, buna görə də
xalq taqətdən düşmüşdü». 29 Yonatan dedi:
«Atam ölkəyə əzab verir. Rica edirəm, baxın
bu baldan bir az daddım, gör necə gözlərim
işıqlandı! 30 Əgər bu gün düşmənlərdən ələ
keçirilən yeməkləri xalq doyunca yemiş
olsaydı, gör nələr olardı? O zaman Filiştlilər
arasında daha böyük qırğın olmazdımı?»

31 Həmin gün İsraillilər Mikmasdan
Ayyalona qədər Filiştliləri məğlub etdilər.
Xalq çox yorğun idi. 32 Ona görə də düşmən
malı üstünə düşüb qoyunları, öküzləri,
buğaları yerindəcə kəsdilər və onları qanlı-
qanlı yedilər. 33 Bunu Şaula xəbər verdilər:
«Bax xalq əti qanlı-qanlı yeyərək Rəbbə qarşı
günah edir». Şaul dedi: «Xəyanət etmisiniz,
indi isə yanıma böyük bir daş yuvarlayın».
34 Şaul sözünə davam etdi: «Xalqın arasına
gedib onlara deyin: "Hər kəs öküzünü,
qoyununu yanıma gətirsin və burada kəsib
yesin. Əti qanlı-qanlı yeyərək Rəbbə qarşı
günah etməyin"». Bütün xalq o gecə öküzünü
öz əli ilə oraya gətirib kəsdi. 35 Şaul Rəbbə bir
qurbangah düzəltdi. Bu onun Rəbb üçün
qurduğu ilk qurbangah idi.

---

[7] **14:14** *Yarım sahə torpaq* – yarım hektara qədər sahə.

***14:33** – Yar. 9:4; Lev. 7:26-27; 17:10-14; 19:26; Qanun. 12:16,23-25; 15:23*

[36] Şaul dedi: «Filiştlilərin ardınca gecə ikən
düşək ki, dan yeri sökülənə qədər onları talan
edək və onlardan heç kimi sağ buraxmayaq».
Ona dedilər: «Gözündə nə xoşdursa, onu da
et». Kahin isə dedi: «Gəlin buraya – Allahın
hüzuruna yaxınlaşaq». [37] Şaul Allahdan
soruşdu: «Mən Filiştlilərin ardınca düşümmü?
Sən onları İsraillilərə təslim edəcəksənmi?»
Lakin həmin gün Allah ona cavab vermədi.
[38] Şaul dedi: «Ey bütün xalq başçıları, buraya
yaxınlaşın, bu gün hansı günah etdiyinizi
öyrənin və görün. [39] Çünki İsraili qurtaran, var
olan Rəbbə and olsun, bu işdə oğlum Yonatan
təqsirkar olsa belə, mütləq ölməlidir». Lakin
xalq arasından ona cavab verən olmadı.
[40] Şaul bütün İsraillilərə dedi: «Siz bir tərəfdə,
mən də oğlumla başqa bir tərəfdə duraq».
Xalq Şaula dedi: «Gözündə nə xoşdursa, onu
da et». [41] Şaul İsrailin Allahı Rəbbə dedi:
«Həqiqəti üzə çıxart!» Püşk Şaulla Yonatana
düşdü. Xalq təmizə çıxdı. [42] Şaul dedi:
«Mənimlə oğlum Yonatan arasında da püşk
atın». Püşk Yonatana düşdü. [43] Şaul Yonatana
dedi: «Nə etmisən, mənə bildir!» Yonatan ona
dedi: «Ancaq əlimdə olan dəyənəyin ucu ilə
bir az bal dadmışam, buna görə
ölməliyəmmi?» [44] Şaul dedi: «Yonatan, əgər
mən səni öldürməsəm, Allah mənə beləsini və
bundan betərini etsin! Sən mütləq ölməlisən».
[45] Xalq Şaula belə dedi: «İsraildə belə böyük
qurtuluş zəfəri çalan Yonatanmı öləcək? Əsla!
Var olan Rəbbə and olsun, onun başından bir
tük belə, yerə düşməyəcəkdir. Çünki bu gün o,
Allahın köməyi ilə iş gördü». Beləliklə, xalq
Yonatanı xilas etdi və o ölmədi.

[46] Şaul daha Filiştliləri tə'qib etməyib geri
qayıtdı və Filiştlilər öz yerlərinə qayıtdılar.

[47] Beləliklə, Şaul İsrail üzərində padşah
olandan sonra ətrafdakı bütün düşmənlərinə –
Moavlılara, Ammonlulara, Edomlulara, Sova
padşahlarına və Filiştlilərə qarşı döyüşdü.
Hansı tərəfə gedərdisə, onların başına bəla
gətirirdi. [48] O şücaət göstərərək Amaleqliləri
məğlub etdi və İsraili talan edənlərin əlindən
qurtardı.

[49] Şaulun oğulları Yonatan, İşvi və Malki-
Şua idi. İki qızından böyüyünün adı Merav,
kiçiyinin adı isə Mikal idi. [50] Şaulun arvadının
adı Aximaas qızı Axinoam idi. Ordu başçısı
Şaulun əmisi Nerin oğlu Avner idi. [51] Şaulun
atası Qişlə Avnerin atası Ner Avielin oğulları
idi.

[52] Şaul ömrü boyu Filiştlilərə qarşı şiddətli
döyüşlərdə oldu və o, güclü yaxud da cəsur
bir adam görən zaman öz yanına götürürdü.

### *Şaulun daha bir itaətsizliyi*

15 [1] Şamuel Şaula dedi: «Rəbb məni
göndərdi ki, Öz xalqı İsrail üzərində
padşah olaraq səni məsh edim. İndi isə
Rəbbin sözünü dinlə, [2] Ordular Rəbbi belə
deyir: "İsraillilər Misirdən çıxan zaman yolda
Amaleqlilər onlara qarşı müqavimət
göstərdilər. Ona görə də onları
cəzalandıracağam. [3] İndi get, Amaleqliləri qır,
hər şeylərini tamamilə darmadağın et və
onlara heyfin gəlməsin. Kişidən qadınadək,
yeniyetmədən südəmər körpəyədək, öküzdən
qoyunadək, dəvədən eşşəyədək hamısını qır"».

[4] Şaul xalqı çağırdı və onları Telaimdə
saydı: iki yüz min piyada əsgərlə bərabər
Yəhudadan on min nəfər var idi. [5] Şaul
Amaleqlilərin şəhərinə gəlib vadidə pusqu
qurdu. [6] O, Qenlilərə dedi: «Gedib
Amaleqlilərdən ayrılın ki, sizi də onlarla
bərabər qırmayım. Çünki İsrail övladları
Misirdən çıxan zaman siz onlara xeyirxahlıq
etdiniz». Qenlilər Amaleqlilərdən ayrıldılar.

[7] Şaul Xaviladan Misirin şərqindəki Şura
çatana qədər Amaleqliləri qırdı. [8] Amaleq
padşahı Aqaqı sağ tutdu, bütün xalqı isə
tamamilə qılıncdan keçirdi. [9] Amma Şaul
xalqı ilə birlikdə Aqaqa və Amaleqlilərin ən
yaxşı qoyunlarına, öküzlərinə, kökəldilmiş
heyvanlarına, quzularına və yaxşı şeylərin
hamısına heyfi gəlib tamamilə məhv etmək
istəmədi, bütün gərəksiz və yararsız şeyləri
isə tamamilə yox etdi.

[10] Bundan sonra Rəbbin sözü Şamuelə nazil
oldu: [11] «Şaulu padşah etdiyimə peşman
oldum. Çünki o dönüb Mənim ardımca
getməyərək sözlərimi yerinə yetirməyib».
Şamuel qəzəbləndi və bütün gecəni Rəbbə
fəryad etdi. [12] O, Şaulla səhər görüşmək üçün
erkən durdu, amma ona belə xəbər verdilər:
«Şaul Karmelə getdi və özünə abidə
qoyandan sonra geri qayıdıb irəlidəki Qilqala
endi».

[13] Şamuel Qilqala, Şaulun yanına gəldi.
Şaul ona dedi: «Qoy Rəbb sənə xeyir-dua
versin, mən Rəbbin sözünə əməl etdim».
[14] Şamuel isə dedi: «Elə isə qulaqlarıma gələn

---

***15:1*** *– 1Şam. 10:1*
***15:2*** *– Çıx. 17:8-14; Qanun. 25:17-19*

bu qoyun mələşməsi və eşitdiyim bu öküz
böyürtüsü nədir?» 15 Şaul dedi: «Onları
Amaleqlilərdən gətiriblər. Çünki xalq sənin
Allahın Rəbbə qurban etmək üçün qoyunlarla
öküzlərin ən yaxşılarını saxlayıb, qalanlarını
isə tamamilə yox etdi». 16 Şamuel Şaula dedi:
«Dayan, bu gecə Rəbbin mənə söylədiklərini
sənə deyəcəyəm». Şaul dedi: «Danış».
17 Şamuel dedi: «Sən öz gözündə kiçik
olduğun halda İsrail qəbilələrinin başçısı
olmadınmı? Rəbb səni İsrail üzərinə padşah
olaraq məsh etməyibmi? 18 Rəbb səni yürüşə
göndərib dedi: "Günahkarları – Amaleqliləri
tamamilə məhv et və qırıb qurtarana qədər
onlarla vuruş". 19 Bəs nə üçün Rəbbin sözünə
itaət etmədin, qarətçilik edib talana girişdin və
Rəbbin gözündə pis sayılan iş gördün?»
20 Şaul Şamuelə dedi: «Mən Rəbbin sözünə
itaət etdim. Rəbbin məni göndərdiyi yürüşə
getdim. Amaleq padşahı Aqaqı bura gətirdim,
Amaleqliləri isə tamamilə məhv etdim.
21 Lakin xalq talan malından qoyunları və
öküzləri, məhv edilməyə həsr olunanlardan ən
yaxşısını götürdü ki, Qilqalda Allahın Rəbbə
qurban versin». 22 Şamuel isə dedi: «Rəbb Öz
sözünə itaət edilməsindən xoşu gəldiyi qədər
yandırma qurbanı və başqa qurbanlardan xoşu
gələrmi? Bax itaət etmək qurbandan, qulaq
asmaq qoçların iç piyindən daha yaxşıdır.
23 Çünki asilik falçılığa bərabər günahdır,
inadkarlıq isə özbaşınalıq və bütpərəstliyə
bərabərdir. İndi ki sən Rəbbin sözünü rədd
etdin, O da səni padşahlıqdan rədd etdi».
24 Şaul Şamuelə dedi: «Günah etdim, çünki
Rəbbin əmrini və sənin sözlərini pozdum və
xalqdan qorxub onların sözünə qulaq asdım.
25 Rica edirəm, günahımı bağışla və indi
mənimlə bərabər geri qayıt ki, Rəbbə səcdə
qılım». 26 Şamuel Şaula dedi: «Mən səninlə
geri qayıtmayacağam, çünki sən Rəbbin
sözünü rədd etdin. Ona görə Rəbb İsraildə
padşah olmayasan deyə səni rədd etdi».
27 Şamuel geri qayıtmaq üçün dönən zaman
Şaul onun cübbəsinin ətəyindən yapışanda
ətək qopdu. 28 Şamuel ona dedi: «Bu gün
Rəbb də səndən İsrail padşahlığını bu cür
qoparıb səndən də yaxşı olan yaxınına verdi.
29 İsrailin İzzətlisi yalan söyləməz və fikrini
dəyişməz. Axı insan deyil ki, fikrini dəyişsin».
30 Şaul dedi: «Günaha batdım. Rica edirəm,
indi xalqımın ağsaqqalları və İsrail qarşısında
mənə hörmət et və mənimlə birlikdə geri qayıt
ki, Allahın Rəbbə səcdə qılım». 31 Şamuel
Şaulun arxasınca geri qayıtdı və Şaul Rəbbə
səcdə qıldı.
32 Şamuel dedi: «Amaleq padşahı Aqaqı
buraya – mənim yanıma gətirin». Aqaq isə
onun yanına tərəddüd içində gəldi. Aqaq öz-
özünə deyirdi: «Görəsən acı ölüm məni
mütləq haqlayıbmı?» 33 Şamuel dedi: «Sənin
qılıncın qadınları necə övladsız qoyurdusa,
sənin anan da qadınlar arasında beləcə
övladsız qalacaq». Şamuel Qilqalda – Rəbbin
önündə Aqaqı doğradı.
34 Sonra Şamuel Ramaya getdi, Şaul isə
Giveadakı evinə qalxdı. 35 Şamuel ölənə qədər
daha Şaulu görmədi, çünki Şaulun dərdini
çəkirdi. Rəbb Şaulu İsrailin padşahı etdiyinə
peşman olmuşdu.

### *Davudun padşah seçilməsi*

16 1 Rəbb Şamuelə dedi: «İsrail
üzərində padşah olmasın deyə Şaulu
rədd etdiyim halda sən nə vaxta qədər onun
dərdini çəkəcəksən? Yağ buynuzunu yağla
doldur və get. Səni Bet-Lexemli Yesseyin
yanına göndərirəm. Çünki onun oğulları
arasında özüm üçün padşah tə'yin etmişəm».
2 Şamuel dedi: «Necə gedim? Axı Şaul eşitsə,
məni öldürər». Rəbb dedi: «Özünlə bir düyə
götürüb "Rəbbə qurban kəsmək üçün
gəlmişəm" de. 3 Yesseyi də qurban
mərasiminə də'vət et və sonra nə edəcəyini
sənə bildirəcəyəm. Sənə deyəcəyim adamı
Mənim üçün məsh edəcəksən». 4 Şamuel
Rəbbin söylədiyi kimi Bet-Lexemə getdi.
Şəhərin ağsaqqalları onu həyəcanla
qarşıladılar və dedilər: «Bu gəlişin
xeyirdirmi?» 5 O dedi: «Bəli, xeyirdir. Rəbbə
qurban kəsmək üçün gəlmişəm. Özünüzü
təqdis edin və mənimlə bərabər qurban
mərasiminə gəlin». Şamuel Yesseylə
oğullarını da təqdis edərək onları da qurban
mərasiminə də'vət etdi.
6 Onlar gələrkən Şamuel Eliava baxıb dedi:
«Doğrudan da, Rəbbin məsh etdiyi Rəbbin
qarşısındadır!» 7 Lakin Rəbb Şamuelə belə
dedi: «Onun görünüşünə və uca boyuna
baxma, Mən onu rədd etmişəm. Ona görə ki
Rəbb insanın gördüyü kimi görməz, çünki
insan zahirə, Rəbb isə ürəyə baxar». 8 O
zaman Yessey Avinadavı çağırdı və onu
Şamuelin qarşısından keçirdi. Şamuel dedi:
«Rəbb bunu da seçmədi». 9 Yessey Şammanı

gətirdi və Şamuel dedi: «Rəbb bunu da
seçmədi». 10 Yessey isə oğlanlarının yeddisini
Şamuelin qarşısından keçirdi. Şamuel
Yesseyə dedi: «Rəbb bunları seçmədi».
11 Sonra Yesseydən soruşdu: «Oğlanlarının
hamısı budur?» Yessey cavab verdi: «Lap
kiçiyi də var, odur, qoyun otarır». Şamuel
Yesseyə dedi: «Bir nəfər göndər, qoy o da
buraya gəlsin. Çünki o buraya gəlməsə, biz
süfrəyə oturmayacağıq». 12 Yessey adam
göndərib onu içəri gətirtdi. Oğlan alyanaq,
gözləri gözəl, üzü göyçək idi. Rəbb Şamuelə
dedi: «Dur, onu məsh et, çünki seçilmiş
budur». 13 Şamuel yağ buynuzunu götürüb
qardaşları arasında onu məsh etdi və o gündən
başlayaraq Davudun üzərinə Rəbbin Ruhu
qüvvə ilə endi. Sonra Şamuel qalxıb Ramaya
getdi.

### *Şaul və Davud*

14 Rəbbin Ruhu Şauldan ayrılandan sonra
Rəbbin izni ilə şər bir ruh ona əzab verirdi.
15 Şaulun ə'yanları ona belə dedilər: «Budur,
indi Allahın izni ilə şər bir ruh sənə əziyyət
verir. 16 Ey ağamız, qarşında olan qullarına
əmr et ki, yaxşı çəng çalan bir adam
axtarsınlar. Allahın izni ilə şər ruh sənin
üstünə gələn zaman o lira çalar, sən də
ruhlanarsan». 17 Şaul ə'yanlarına dedi: «Elə
isə mənim üçün yaxşı çəng çalan bir adam
tapıb yanıma gətirin». 18 Gənc ə'yanlardan biri
cavab verdi: «Mən görmüşəm ki, Bet-Lexemli
Yesseyin oğlu yaxşı çəng çalır. O, igid, cəsur
döyüşçü, müdrikliklə danışan, yaraşıqlı bir
oğlandır və Rəbb onunladır». 19 Şaul Yesseyin
yanına qasidlər göndərib dedi: «Qoyunotaran
oğlun Davudu mənim yanıma göndər».
20 Yessey bir eşşəyə çörək, bir tuluq şərab, bir
oğlaq yüklədi və oğlu Davudun əli ilə Şaula
göndərdi. 21 Davud Şaulun yanına gəldi və
onun qulluğunda durdu. Davud Şaulun çox
xoşuna gəldi və onu öz silahdarı etdi.
22 Sonra Şaul Yesseyin yanına adam
göndərib dedi: «Rica edirəm, qoy Davud
yanımda qalsın, çünki o, gözümdə lütf tapıb».
23 Hər dəfə Allahın izni ilə Şaula şər ruh gələn
zaman Davud lirasını götürüb çalar, Şaul
sakitləşər, yaxşı olar və şər ruh ondan
ayrılardı.

### *Davud Qolyatı öldürür*

17 1 Filiştlilər müharibə üçün
ordularını toplayıb Yəhudaya mənsub
Soko şəhərində cəmləşdilər. Soko ilə Azeqa
şəhəri arasında olan Efes-Dammimdə ordugah
qurdular. 2 Şaulla İsraillilər toplaşıb Ela
vadisində ordugah qurdular və Filiştlilərə
qarşı döyüş üçün düzüldülər.
3 Filiştlilər bir təpənin üstündə, İsraillilər isə
o biri təpədə dayanmışdılar, aralarında vadi
var idi. 4 Qat şəhərindən olan Qolyat adlı bir
cəngavər Filiştlilərin ordugahından irəli çıxdı.
Onun boyu altı qulac bir qarış[8] idi. 5 Başında
tunc dəbilqəsi vardı, əyninə beş min şekel
ağırlığında tuncdan pullu zireh geymişdi.
6 Baldırlarına tunc zireh taxmışdı və
kürəyində isə tunc mizraq vardı. 7 Nizəsinin
sapı toxucu dəzgahının əriş ağacı boyda olub
dəmir ucu altı yüz şekel ağırlığında idi.
Qalxan daşıyan silahdarı isə onun qabağında
gedirdi.
8 Qolyat İsrail alaylarının qarşısında
dayanaraq qışqıra-qışqıra dedi: «Niyə döyüşə
çıxıb düzülmüsünüz? Mən Filiştli, siz də
Şaulun qulları deyilsinizmi? Aranızdan bir
kişi tapın, qoy yanıma gəlsin. 9 Əgər mənimlə
vuruşanda o məni öldürərsə, onda biz sizə qul
olarıq, yox əgər mən onu vurub öldürsəm,
onda siz bizə qul olub qulluq edəcəksiniz».
10 Sonra Filiştli sözünü belə davam etdirdi:
«Bu gün mən İsrail alaylarına meydan
oxuyuram. Mənim qarşıma təkbətək
vuruşmaq üçün bir kişi çıxarın!» 11 Filiştlinin
bu sözlərini eşidən Şaul və bütün İsraillilər
vahiməyə düşüb çox qorxdu.
12 Davud Yəhudanın Bet-Lexem şəhərindən
olan Yessey adlı bir Efratlının oğlu idi.
Yesseyin səkkiz oğlu var idi. Şaulun
dövründə Yessey qocalıb yaşa dolmuşdu.
13 Onun üç böyük oğlu Şaulun ardınca döyüşə
getmişdi. Döyüşə gedən üç oğlunun adı belə
idi: birincisi Eliav, ikincisi Avinadav və
üçüncüsü Şamma. 14 Davud Yesseyin ən kiçik
oğlu idi. Üç böyük oğlu isə Şaulun ardınca
gedirdi. 15 Davud da atasının sürüsünü
otarmaq üçün Şaulun yanından Bet-Lexemə
gedər və geri qayıdardı. 16 Filiştli Qolyat qırx
gün səhər-axşam İsraillilərə meydan oxudu.
17 Bir gün Yessey oğlu Davuda dedi: «İndi
qardaşların üçün bu bir efa qovurğa və on
kömbə çörəyi götür, ordugaha – qardaşlarının
yanına tələs. 18 Bu on parça pendiri də minbaşı
üçün götür, ondan qardaşlarının hal-əhvalını

---

[8] **17:4** *Altı qulac bir qarış* – təqribən 3 metr.

soruş və mənə onlardan bir xəbər gətir».
[19] Davudun qardaşları Şaul və bütün
İsraillilərlə birgə Ela vadisində Filiştlilərlə
döyüşdə idi.

[20] Davud səhər tezdən durub qoyunlarını
çobana tapşıraraq Yesseyin buyurduğu kimi
ərzaqları götürüb getdi. O, ordugaha gələn
zaman ordu döyüş meydanına çıxır və nə'rə
çəkərək döyüşə düzülürdü. [21] İsraillilərlə
Filiştlilər döyüşmək üçün üz-üzə dayandılar.
[22] Davud gətirdiyi şeyləri tədarük keşikçisinə
verdi, özü isə cəbhəyə qaçdı və qardaşlarının
yanına gəlib onları salamladı. [23] Davud onlarla
söhbət edərkən Filiştlilərin Qat şəhərindən
olan Qolyat adlı cəngavər öz alaylarının
arasından irəli çıxıb yenə əvvəlki kimi sözlər
söylədi. Davud bunu eşitdi. [24] Bütün İsraillilər
bu adamı görəndə bərk qorxdular və onun
qarşısından qaçdılar. [25] İsraillilər dedilər:
«Qabağa çıxan bu adamı görürsünüzmü?
Doğrudan da, o, İsrailə meydan oxumağa
çıxıb. Kim onu öldürsə, padşah onu var-
dövlətə çatdıracaq, qızını ona verəcək və
atasının ailəsini İsraildəki vergidən azad
edəcək». [26] Davud yanındakı adamlara dedi:
«Bu Filiştlini öldürüb İsraili bu xəcalətdən
qurtaran adama nə ediləcək? Axı bu sünnətsiz
Filiştli kimdir ki var olan Allahın alaylarına
meydan oxuyur?» [27] Xalq onu öldürən adama
nə ediləcəyini deyərək eyni sözü təkrar etdi.

[28] Davud adamlarla danışarkən böyük
qardaşı Eliav onun səsini eşitdi və qəzəbdən
alovlanaraq dedi: «Sən niyə aşağı enmisən?
Çöldəki bir neçə qoyunumuzu kimə
tapşırmısan? Bilirəm, sən lovğalığından və
ürəyinin pis niyyətindən ötrü buraya döyüşə
tamaşa etmək üçün gəlmisən». [29] Davud dedi:
«Axı indi mən nə etmişəm? Yə'ni danışa da
bilmərəm?» [30] Davud oradan qayıdıb
başqasından soruşdu və xalq ona yenə də
əvvəlki kimi cavab verib eyni sözləri dedi.

[31] Davudun bu sözlərini eşidənlər bunu
Şaula çatdırdılar. Şaul onu yanına çağırtdırdı.
[32] Davud Şaula dedi: «Bu adamdan ötrü heç
kim ürəyini üzməsin. Sənin qulun gedib o
Filiştli ilə vuruşacaq». [33] Şaul Davuda dedi:
«Bu Filiştli ilə vuruşmağa hünərin çatmaz,
çünki sən hələ uşaqsan, o isə cavanlığından
döyüşçüdür». [34] Davud Şaula dedi: «Sənin
qulun atasının qoyunlarını otaranda aslan
yaxud da ayı gəlib sürüdən bir quzu götürəndə
[35] mən arxadan çıxıb onu vurardım və
ağzından quzunu qurtarardım. Əgər üstümə
atılardısa, mən boğazının tüklərindən tutaraq
çırpıb öldürərdim. [36] Bu qulun həm aslan, həm
də ayı öldürüb, bu sünnətsiz Filiştli də
onlardan biri kimi olacaq, çünki o, var olan
Allahın alaylarına meydan oxumuşdur».
[37] Davud sözünə davam etdi: «Məni aslan
pəncəsindən, ayı pəncəsindən qurtaran Rəbb
bu Filiştlinin də əlindən qurtaracaq». Şaul
Davuda dedi: «Get, Rəbb sənə yar olsun!»

[38] Şaul öz silahlarını Davuda bağladı və
başına tunc dəbilqə qoyub əyninə zireh
geyindirdi. [39] Davud bu zirehin üstündən
qılınc taxıb gəzməyə çalışdı, çünki ona
alışmamışdı. Sonra Davud Şaula dedi:
«Bunlara alışmadığım üçün gəzə bilmirəm».
Davud onları əynindən çıxartdı. [40] Sonra əlinə
dəyənəyini götürüb çaydan özünə beş hamar
daş seçdi və onları üstündəki çoban torbasına
– dağarcığına qoyub əlində sapand Filiştliyə
yaxınlaşdı.

[41] Filiştli irəliləyərək Davuda yaxınlaşırdı.
Qalxan daşıyan nökəri isə onun qabağında idi.
[42] O nəzər salıb Davudu görəndə ona kinayə
ilə baxdı. Çünki Davud gənc, alyanaq,
üzügöyçək idi. [43] Filiştli Davuda dedi: «Məgər
mən itəm ki, üstümə dəyənəklərlə gəlirsən».
Filiştli öz allahları ilə Davudu lə'nətlədi və
dedi: [44] «Yanıma gəl, sənin ətini göydəki
quşlara və çöldəki heyvanlara verim».

[45] Davud isə Filiştliyə dedi: «Sən mənim
üstümə qılınc, nizə və mizraqla gəlirsən, lakin
mən sənin üstünə söydüyün İsrail alaylarının
Allahı Ordular Rəbbinin ismi ilə gəlirəm.
[46] Bu gün Rəbb səni mənə təslim edəcək və
mən səni öldürəcəyəm. Başını bədənindən
ayıracağam. Bu gün Filişt ordusunun leşlərini
göydəki quşlara və yerdəki heyvanlara
verəcəyəm. Bundan sonra bütün dünya
biləcək ki, İsraildə Allah var. [47] Bütün bu
camaat biləcək ki, Rəbb qılıncla və nizə ilə
xilas etməz, çünki bu döyüş Rəbbindir və O
sizi bizə təslim edəcək».

[48] Davudun qabağına çıxmaq üçün Filiştli
durub yaxınlaşanda Davud cəld onu
qabaqlayıb Filişt alaylarına tərəf qaçdı.
[49] Davud əl atıb dağarcığından bir daş götürdü,
sapandla fırladaraq Filiştlinin alnından vurdu.
Daş onun alnına batdı və o, üzüstə yerə yıxıldı.

[50] Davud Filiştlini sapandla, daşla məğlub
etdi və vurub yerə sərdi. Davudun əlində
qılınc yox idi. [51] O qaçıb bu Filiştlinin üstünə

çıxdı. Filiştlinin qılıncını götürdü, qınından
çəkib onu öldürdü və sonra başını kəsdi.
Filiştlilər öz cəngavərinin öldürüldüyünü
görəndə qaçdılar. 52 İsraillilərlə Yəhudalılar
isə qalxıb nə'rə çəkdilər və Filiştliləri Qatın
girişinə və Eqronun darvazalarına çatana
qədər qovdular. Filiştlilərdən ölənlər
Şaarayim yolu boyu Qata və Eqrona qədər
yerə sərilmişdilər. 53 İsrail övladları Filiştliləri
arxadan qovandan sonra qayıdıb onların
ordugahını talan etdilər. 54 Davud Qolyatın
başını götürüb Yerusəlimə gətirdi, lakin
silahını öz çadırına qoydu.

55 Şaul Davudun Filiştliyə qarşı çıxdığını
görən zaman ordu başçısı Avnerə «Avner, bu
gənc kimin oğludur?» deyə soruşdu. Avner
isə dedi: «Padşah sağ olsun, bilmirəm».
56 Padşah dedi: «Öyrən gör, bu cavan kimin
oğludur». 57 Davud Qolyatı öldürüb
qayıdandan sonra Avner onu götürüb Şaulun
qarşısına gətirdi. Filiştlinin başı onun əlində
idi. 58 Şaul ona dedi: «Ey cavan, kimin
oğlusan?» Davud cavab verdi: «Qulun Bet-
Lexemli Yesseyin oğluyam».

### *Davud və Yonatan*

18 1 Davud Şaulla danışığını qurtaran
kimi Yonatanın qəlbi Davudun
qəlbinə bağlandı və Yonatan onu öz canı kimi
sevdi. 2 Şaul o gündən sonra Davudu öz
yanında saxlayıb bir daha atasının evinə
qayıtmağa qoymadı. 3 Yonatan isə Davudla
əhd bağladı, çünki onu öz canı kimi sevirdi.
4 Yonatan cübbəsini əynindən çıxarıb qılınc,
ox-kaman və kəməri ilə birlikdə zirehini
Davuda verdi.

5 Şaul Davudu hansı işə göndərirdisə, o
uğur qazanırdı. Ona görə də Şaul Davudu
döyüşçülərinin başçısı etdi və bu da həm
xalqın, həm də Şaulun ə'yanlarının gözünə
xoş göründü.

### *Şaulun Davuda paxıllıq etməsi*

6 Davud Filiştli Qolyatı öldürüb qayıdanda
əsgərlər geri gələrkən İsrailin bütün
şəhərlərindən qadınlar dəflərlə, üçsimli
alətlərlə şənlik mahnısı oxuyaraq və rəqs
edərək padşah Şaulu qarşılamaq üçün
çıxırdılar. 7 Qadınlar rəqs edə-edə belə mahnı
oxuyurdular:
«Şaul qırdı minləri,
Davudsa on minləri».
8 Şaul bundan çox qəzəbləndi, çünki bu söz
onun gözündə pis göründü və dedi: «Davud
üçün on minləri, mənim üçünsə ancaq minləri
deyirlər. Təkcə padşahlıq qaldı, bundan başqa
nə var ki, ona verilsin?» 9 O gündən sonra
Şaul Davuda çəp-çəp baxmağa başladı.

10 Ertəsi gün Allahın izni ilə şər ruh Şaulun
üstünə qüvvə ilə gəldi və o, evinin ortasında
sayıqlamağa başladı. Davud isə hər gün etdiyi
kimi yenə də əlində lira çalırdı. Şaulun nizəsi
əlində olardı. 11 Şaul «qoy Davudu bu nizə ilə
divara yapışdırım» deyərək nizəni atdı. Lakin
Davud onun qabağından iki dəfə kənara
çəkildi. 12 Şaul Davuddan qorxdu, çünki Rəbb
Davudla idi və Şauldan ayrılmışdı. 13 Ona
görə də Şaul onu öz yanından uzaqlaşdırıb
minbaşı etdi və Davud xalqı döyüşə aparıb-
gətirməyə başladı. 14 Davud bütün
yürüşlərində uğur qazanırdı, çünki Rəbb
onunla idi. 15 Şaul Davudun böyük uğurlar
qazandığını görüb çox qorxdu. 16 Bütün İsrail
və Yəhuda xalqı isə Davudu çox sevirdi,
çünki onları döyüşlərə aparıb-gətirirdi.

17 Şaul Davuda dedi: «Bax, budur böyük
qızım Merav, onu sənə ərə verəcəyəm. Ancaq
sən uğrumda cəsur ol və Rəbbin döyüşlərini
apar». Çünki Şaul «qoy o mənim yox,
Filiştlilərin əlində ölsün» deyə fikirləşdi.
18 Davud Şaula dedi: «Axı mən kiməm ki?
Ailəm kimdir, İsraildə atamın nəsli kimdir ki,
padşaha kürəkən olum?» 19 Şaulun qızı Merav
isə Davuda veriləcəyi vaxt Mexolalı Adrielə
ərə verildi.

20 Şaulun o biri qızı Mikal Davuda
vurulmuşdu. Bu xəbəri Şaula çatdırdılar və bu
onun gözündə xoş göründü. 21 Şaul «Davuda
Mikalı verim ki, bu ona bir tələ olsun. Qoy
Davud Filiştlilərin əli ilə öldürülsün» deyə
fikirləşdi. Sonra Şaul Davuda dedi: «Bu gün
mənə kürəkən olmaq üçün əlində ikinci fürsət
var». 22 Şaul ə'yanlarına əmr etdi ki, Davuda
gizlincə belə desinlər: «Bax padşahın səndən
xoşu gəlir və bütün ə'yanları da səni sevir; gəl
indi padşaha sən kürəkən ol». 23 Şaulun
ə'yanları bu sözləri Davuda eşitdirəndə o belə
dedi: «Kasıb və gərəksiz adam olan mən
padşahamı kürəkən olum? Məgər bu sizin
gözünüzdə kiçik işdirmi?» 24 Şaulun ə'yanları
«Davud belə söylədi» deyərək onun sözünü
Şaula çatdırdılar. 25 Şaul dedi: «Davuda
deyərsiniz: "Padşah səndən başlıq pulu

***18:7*** *– 1Şam. 21:11; 29:5*

istəmir. Ancaq padşahın düşmənlərindən qisas
almaq üçün yüz Filiştlinin sünnət dərisini
istəyir"». Bunu da Şaul Davudu Filiştlilərin
əli ilə həlak etmək üçün quraşdırmışdı.
26 Şaulun ə'yanları bu sözləri Davuda
çatdırdılar və padşahın kürəkəni olmaq onun
gözündə xoş göründü. Tə'yin olunan günlər
hələ başa çatmamış 27 Davud qalxıb adamları
ilə getdi və Filiştlilərdən iki yüz kişini
öldürdü. Padşahın kürəkəni olmaq üçün
Davud onların sünnət dərilərini gətirdi və
onları tam sayda padşaha verdilər. Şaul qızı
Mikalı Davuda ərə verdi. 28 Şaul Rəbbin
Davudla olduğunu görüb başa düşdü. Şaulun
qızı Mikal isə Davudu sevirdi. 29 Bundan
sonra Şaul Davuddan daha da qorxdu və
ömrünün sonuna qədər ona düşmən oldu.
30 Filiştlilərin başçıları döyüşə çıxırdılar.
Onlar hər dəfə döyüşə çıxanda Davud Şaulun
ə'yanlarının hamısından daha çox uğur
qazanırdı. Buna görə də onun adı çox
şöhrətlənmişdi.

### *Şaulun Davudu tə'qib etməsi*

19 1 Şaul oğlu Yonatana və bütün
ə'yanlarına tapşırdı ki, Davudu
öldürsünlər. Lakin Şaulun oğlu Yonatanın
Davuddan çox xoşu gəlirdi. 2 Yonatan Davuda
xəbər verib dedi: «Atam Şaul səni öldürmək
istəyir. İndi isə rica edirəm, səhərə qədər
özünü qoru. Bir yer tap, gizlən. 3 Mən isə
çöldə gizləndiyin yerə çıxaraq atamın yanında
dayanıb sənin haqqında onunla danışacağam.
Əgər bir şey görsəm, gəlib sənə xəbər
verərəm». 4 Yonatan atası Şaula Davudu
tə'rifləyib dedi: «Padşah qulu Davuda qarşı
günah etməsin, çünki o sənə qarşı heç vaxt
günah etməyib və onun işləri sənin üçün çox
xeyirli olmuşdur. 5 O, canını dişinə tutub
Qolyatı öldürdü və Rəbb bütün İsrailə böyük
qələbə qazandırdı. Bunu sən də görüb
sevindin. Davudu boş yerə öldürməklə nə
üçün nahaq qan töküb günah edirsən?» 6 Şaul
Yonatanın sözünü dinləyib «var olan Rəbb
haqqı, onu öldürməyəcəyəm» deyə and içdi.
7 Yonatan Davudu çağırdı və bütün bu sözləri
ona xəbər verdi. Sonra o, Davudu Şaulun
yanına gətirdi və Davud əvvəlki kimi Şaulun
qulluğunda durdu.
8 Yenidən müharibə başladı. Davud qalxıb
Filiştlilərə qarşı vuruşdu, onları məğlubiyyətə
uğratdı və Filiştlilər Davudun qabağından
qaçdılar. 9 Şaul əlində nizə evdə oturmuşdu,
Rəbbin izni ilə şər ruh onun üzərinə endi.
Davud isə əlində lira çalırdı. 10 Şaul Davudu
nizə ilə divara yapışdırmağa çalışdı, lakin
Davud Şaulun qabağından qaçdı, nizə divara
yapışdı. Davud o gecə qaçıb canını qurtardı.
11 Şaul Davudun evinə adamlar göndərdi ki,
onu güdüb səhər ikən öldürsünlər. Davudun
arvadı Mikal bunu Davuda xəbər verib dedi:
«Əgər bu gecə canını qurtarmasan, səhər ikən
öldürüləcəksən». 12 Sonra Mikal Davudu
pəncərədən aşağı saldı və o qaçaraq qurtuldu.
13 Mikal ev bütünü götürüb yatağa uzatdı və
başına tüklü keçi dərisi keçirib üstünü paltarla
örtdü. 14 Şaulun Davudu yaxalamaq üçün
göndərdiyi adamlar gələndə Mikal dedi ki, o
xəstədir. 15 Şaul Davudu görmək istəyirdi.
Onun üçün başqa adamlar göndərib dedi:
«Onu yatağının içindən çıxarıb yanıma gətirin
ki, öldürüm». 16 Bu adamlar içəri girib
gördülər ki, yataqda başına tüklü keçi dərisi
keçirilmiş büt uzanıb. 17 Şaul Mikala dedi:
«Niyə məni aldatdın? Düşmənimi buraxdın, o
da qurtuldu». Mikal Şaula cavab verdi:
«Davud mənə dedi ki, məni burax, gedim!
Axı niyə səni öldürüm?»
18 Davud qaçıb qurtuldu və Ramaya,
Şamuelin yanına gəldi. Şaulun ona qarşı nə
etdiyini təfsilatı ilə Şamuelə danışdı və onunla
birlikdə gedib Nayot məhəlləsində qaldılar.
19 «Budur, Davud Ramanın Nayot
məhəlləsindədir» deyə Şaula xəbər verdilər.
20 Şaul Davudu gətirmək üçün oraya adamlar
göndərdi. Adamlar Şamuelin başçılığı altında
peyğəmbərlər dəstəsinin peyğəmbərlik
etdiyini gördülər. Onda bu adamların da
üstünə Allahın Ruhu endi və onlar da
peyğəmbərlik etməyə başladılar. 21 Bunu
Şaula xəbər verdilər, o başqa adamlar
göndərdi və onlar da peyğəmbərlik etdilər.
Şaul üçüncü dəfə yenə adamlar göndərdi,
onlar da peyğəmbərlik etdilər. 22 Axırda özü
Ramaya getdi və Sekuda olan böyük quyunun
yanına gəlib oradakılardan soruşdu:
«Şamuellə Davud haradadırlar?» Bir nəfər
dedi ki, budur, Ramadakı Nayotda. 23 Şaul
Ramadakı Nayota gedəndə onun da üstünə
Allahın Ruhu endi və Ramadakı Nayota
çatana qədər peyğəmbərlik edərək getdi.

---

***19:11** – Zəb. 59 başlıq*

24 Sonra o, paltarını soyunub Şamuelin
qabağında peyğəmbərlik etdi və gəlib bütün o
günü və gecəni çılpaq yerə sərildi. Buna görə
də «Məgər Şaul da peyğəmbərlərin
sırasındadır?» deyirlər.

### *Yonatanla Davudun əhdi*

20 1 Davud Ramadakı Nayotdan qaçdı
və gəlib Yonatana dedi: «Axı nə
etmişəm? Təqsirim nədir? Atana qarşı nə
günahım var ki, canımın qəsdinə durub?»
2 Yonatan ona cavab verdi: «Əsla, sən
ölməyəcəksən. Bax böyük olsun, kiçik olsun,
atam mənə deməmiş bir iş görməz. Axı niyə
atam məndən bu işi gizlətsin? Belə şey ola
bilməz!» 3 Davud yenə and içib dedi: «Atan
əmindir ki, mən sənin gözündə lütf tapmışam.
Ona görə deyir ki, qoy Yonatan bunu
bilməsin, yoxsa kədərlənər. Lakin var olan
Rəbbə və canına and olsun, mənimlə ölüm
arasında, həqiqətən, ancaq bir addım var».
4 Yonatan Davuda dedi: «Sənin üçün ürəyin
nə istəsə, onu da edəcəyəm». 5 Davud
Yonatana dedi: «Sabah Təzə Ay mərasimidir
və mütləq padşahla yeməyə oturmalıyam.
Lakin sən mənə birisi gün axşama qədər izin
ver, gedib çöldə gizlənim. 6 Əgər atan məni
axtararsa, o vaxt de ki, Davud öz şəhərinə –
Bet-Lexemə dəymək üçün məndən izin istədi.
Çünki orada bütün ailəsinin illik qurbanı
vardır. 7 Əgər “lap yaxşı” deyərsə, deməli
sənin qulun salamatdır, yox, əgər
qəzəblənərsə, onda o mənə pislik etmək
niyyətindədir. 8 Belə olarsa, bu quluna
xeyirxahlıq et, çünki qulunu özünlə Rəbbin
əhdinə saldın. Əgər mənim təqsirim varsa, sən
özün məni öldür. Axı nə üçün məni atanın
yanına aparmalısan?» 9 Yonatan dedi: «Əsla,
bu sənin başına gəlməz! Atamın sənə pislik
etmək niyyətində olduğunu bilsəydim, sənə
xəbər verməzdimmi?» 10 Davud Yonatana
dedi: «Atan sənə sərt cavab versə, bunu mənə
kim bildirəcək?» 11 Yonatan Davuda dedi:
«Gəl çölə çıxaq». Hər ikisi çölə çıxdı.

12 Sonra Yonatan Davuda dedi: «İsrailin
Allahı Rəbbə and olsun, sabah yaxud o birisi
gün bu vaxtlar mən atamdan fikrini
öyrənərəm. Əgər, həqiqətən, Davuda qarşı
fikri yaxşıdırsa, bu xəbəri sənə çatdıraram.
13 Yox, əgər sənə pislik etmək atamın xoşuna
gəlirsə və mən bunu sənə deməsəm, salamat
gedəsən deyə səni yola salmasam, Rəbb
Yonatana beləsini və bundan betərini etsin.
Rəbb necə atamla oldusa, qoy səninlə də elə
olsun. 14 Əgər sağ qalaramsa, Rəbbin
sədaqətini mənə göstərərsən. Yox, əgər ölsəm,
15 bu sədaqəti Rəbb Davudun bütün
düşmənlərini yer üzündən silən zaman da heç
vaxt evimdən kəsməyəcəksən». 16 Yonatan
Davud nəsli ilə əhd bağlayıb dedi: «Qoy Rəbb
Davudun düşmənlərini Özü cəzalandırsın!»
17 Yonatan Davuda olan sevgisi naminə bir də
ona and içdirdi, çünki onu öz canı kimi
sevirdi.

18 Yonatan dedi: «Sabah Təzə Ay
mərasimidir, yerin boş olduğu üçün səni
axtaracaqlar. 19 Üç gün qalandan sonra tezdən
bura enərsən və əvvəl gizləndiyin yerə gəlib
Ezel[9] daşının yanında oturarsan. 20 Mən
hədəfə atan kimi daşın bir tərəfinə üç ox
atacağam. 21 Sonra “get oxları tap” deyərək bir
uşaq göndərəcəyəm. Bax əgər uşağa “oxlar
burada – sənin yanındadır, get onları oradan
götür” desəm, yanıma gəl, çünki sənin üçün
salamatlıqdır və var olan Rəbbə and olsun,
heç bir şey yoxdur. 22 Lakin əgər uşağa “oxlar
səndən uzaqdadır” desəm, öz yolunla çıx get,
çünki Rəbb səni uzağa göndərmişdir.
23 Aramızda danışdığımız sözə gəlincə, bil ki,
Rəbb əbədi olaraq səninlə mənim aramdadır».

24 Davud çöldə gizləndi. Təzə Ay mərasimi
başlayarkən padşah yeməyə oturdu.
25 Həmişəki kimi padşah öz yerində – divarın
yanında oturdu. Yonatan ayağa qalxdı və
Avner Şaulun yanında oturdu. Davudun yeri
isə boş idi. 26 Şaul o gün bir söz demədi, çünki
elə düşünürdü ki, Davudun başına nə isə gəlib.
Yəqin ki natəmizdir. 27 Ertəsi gün – Təzə Ay
mərasiminin ikinci günü Davudun yeri yenə
də boş idi və Şaul oğlu Yonatana dedi: «Nə
üçün Yesseyin oğlu nə dünən, nə də bu gün
yeməyə gəlməyib?» 28 Yonatan Şaula belə
cavab verdi: «Davud Bet-Lexemə getmək
üçün tə’kidlə məndən izin istədi. 29 Mənə dedi:
“Rica edirəm, izin ver gedim, çünki şəhərdə
ailəmizin qurbanı var. Orada olmağımı böyük
qardaşım mənə əmr etmişdi. Əgər indi
gözündə lütf tapmışamsa, rica edirəm, məni

***19:24*** *– 1Şam. 10:11-12*
***20:5*** *– Say. 28:11*
***20:15*** *– 2Şam. 9:1*
[9] **20:19** *Ezel* – ibrani dilində *ayrılıq.*

burax, gedim qardaşlarımla görüşüm". Buna
görə də padşahın süfrəsinə gələ bilməyib».
30 Yonatana qarşı Şaulun qəzəbi alovlandı
və ona belə dedi: «Ey xəyanətkar və dönük
qadının oğlu, öz rüsvayçılığına görə, ananın
biabırçılığına görə Yesseyin oğlunu özünə
dost seçdiyini guya mən bilmirəm? 31 Nə
qədər ki Yesseyin bu oğlu yer üzündə yaşayır,
nə sən rahat olacaqsan, nə də padşahlığın. İndi
isə adam göndər, qoy onu yanıma gətirsin,
çünki o mütləq ölməlidir». 32 Yonatan atası
Şaula cavab verdi: «Axı nə üçün ölməlidir? O
nə edib ki?» 33 Şaul Yonatanı öldürmək üçün
nizə atdı. Onda Yonatan atasının Davudu
öldürmək niyyətində olduğunu başa düşdü.
34 Yonatan qızğın qəzəblə süfrə üstündən
qalxdı. Təzə ayın ikinci günündə yemək
yemədi, çünki atası Davuda namərdlik etdiyi
üçün qanı qaralmışdı.
35 Səhəri gün erkən Yonatan Davudla tə'yin
etdiyi vaxt çölə getdi. Yanında kiçik bir uşaq
var idi. 36 O, uşağa dedi: «Qaç, indi atacağım
oxları tap». Uşaq qaçarkən Yonatan onun başı
üzərindən bir ox atdı. 37 Uşaq Yonatanın atdığı
oxun yanına çatanda Yonatan uşağı arxadan
çağırıb dedi: «Ox səndən uzaqda deyilmi?»
38 Yonatan uşağı yenə arxadan çağırıb «Tez ol,
qaç, dayanma!» dedi. Yonatanın nökəri oxu
götürüb ağasının yanına gəldi. 39 Lakin uşağın
heç nədən xəbəri yox idi. Bu işi ancaq
Yonatanla Davud bilirdi. 40 Yonatan
silahlarını uşağa verib dedi: «Get, bunları
şəhərə apar». 41 Uşaq gedəndən sonra Davud
daşın cənub tərəfindən çıxıb üzüstə yerə
sərildi və üç dəfə onun qarşısında əyildi.
Onlar öpüşüb ağlaşdılar, Davud daha çox
ağladı. 42 Yonatan Davuda dedi: «Sağ-salamat
get, çünki "səninlə mənim aramda və sənin
övladlarınla mənim övladlarım arasında
əbədilik Rəbb olacaq" deyərək ikimiz də
Rəbbin isminə and içmişik». Bundan sonra
Davud qalxıb öz yolu ilə getdi, Yonatan isə
şəhərə qayıtdı.

### *Davudun Şaulun yanından qaçması*

21 1 Davud Nov şəhərinə – kahin
Aximelekin yanına gəldi. Aximelek
qorxudan əsərək Davudu qarşılayıb dedi:
«Niyə tənhasan, məgər yanında heç kim
yoxdur?» 2 Davud kahin Aximelekə dedi:
«Padşah mənə iş buyurub dedi ki, səni nə
üçün göndərdiyimi və sənə əmr etdiyim işi
heç kim bilməsin. Ona görə də nökərləri
müəyyən yerlərə tə'yin etmişəm. 3 İndi
yanında yeməyə nə var? Mənə beş kömbə
çörək yaxud nə varsa, ver». 4 Kahin Davuda
dedi: «Yanımızda adi çörək yoxdur, ancaq
gənclər qadınlarla yaxınlıq etməyiblərsə,
müqəddəs çörək var». 5 Davud kahinə belə
cavab verdi: «Adətə görə mənim adamlarım
adi səfərə çıxanda belə, bədənlərini təmiz
saxlayır və qadınlarla yaxınlıq etmirlər. O ki
qaldı bugünkü səfərə, sözsüz ki hamı pak
olmalıdır». 6 Kahin ona müqəddəs çörək verdi,
çünki Rəbbə təqdim edilən çörəklərdən başqa,
çörək yox idi. O çörəklər Rəbbin önündən
götürülmüşdü ki, yerinə isti çörəklər qoyulsun.
7 O gün Şaulun ə'yanlarından bir nəfər
orada idi. O, Rəbbin önündə olan dini
mərasimə görə yubanmışdı. Bu, Şaulun baş
çobanı Edomlu Doeq idi. 8 Davud Aximelekə
dedi: «Burada yanınızda bir nizə yaxud bir
qılınc varmı? Çünki padşah mənə tə'cili iş
buyurduğu üçün nə qılıncımı, nə də
silahlarımı götürə bildim». 9 Kahin dedi: «Ela
vadisində öldürdüyün Filiştli Qolyatın qılıncı
bezə bükülü olaraq orada – efodun
arxasındadır. Əgər onu istəyirsənsə, götür,
çünki burada ondan başqası yoxdur». Davud
dedi: «Onun əvəzi yoxdur, mənə ver».
10 O gün Davud Şauldan qaçdı və Qat
padşahı Akişin yanına getdi. 11 Akişin
ə'yanları ona dedilər: «Bu öz ölkəsinin
padşahı Davud deyilmi? Rəqslərdə qadınlar
bunu tərənnüm edib oxumurdularmı?
"Şaul qırdı minləri,
Davudsa on minləri"».
12 Davud bu sözləri ürəyinə salıb Qat
padşahı Akişdən çox qorxdu. 13 Onların
qarşısında görkəmini dəyişdirdi və yanlarında
özünü dəli kimi göstərərək darvaza qapısının
taylarını cırmaqladı və ağzının suyunu
saqqalına axıtdı. 14 Akiş ə'yanlarına dedi:
«Bax görürsünüz ki, bu adam dəlidir. Nə üçün
onu mənim yanıma gətirmisiniz? 15 Mənim
dəlilərim əskikdir ki, qarşımda dəlilik etmək
üçün bunu da gətirdiniz? Heç belə adam da
mənim evimə girərmi?»

---

***21:1-6** – Mat. 12:3-4; Mrk. 2:25-26; Luk. 6:3-4*

***21:6** – Lev. 24:5-9*
***21:9** – 1Şam. 17:51*
***21:11** – 1Şam. 18:7; 29:5*
***21:12-13** – Zəb. 56 başlıq; Zəb. 34 başlıq*

22 1 Davud oradan yola çıxıb Adullam
mağarasında gizləndi. Qardaşları və
atasının külfəti bunu eşidəndə onun yanına
gəldilər. 2 Vəziyyəti ağır olanların, borcu
olanların, narazıların hamısı yanına yığıldı və
Davud onların başçısı oldu. Onun yanında
dörd yüz nəfərə qədər adam var idi.
3 Davud oradan Moavın Mispa şəhərinə
gəlib Moav padşahına dedi: «Rica edirəm,
Allahın mənə nə edəcəyini bilənə qədər qoy
atamla anam gəlib yanında qalsın». 4 Davud
onları Moav padşahının yanında qoydu və özü
qalada qaldığı müddətdə ata və anası Moav
padşahının yanında qaldı. 5 Peyğəmbər Qad
Davuda dedi: «Sən burada – qalada belə
dolanma, Yəhuda diyarına get». Davud gedib
Xeret meşəsinə girdi.

### *Şaulun Nov kahinlərini öldürməsi*

6 Şaul Davudla yanındakı adamlarının
yerini öyrəndi. O, Giveadakı bir təpədə,
yulğun ağacının altında əlində nizə oturmuş,
bütün ə'yanları isə ətrafında dayanmışdılar.
7 Şaul ətrafındakı ə'yanlarına belə dedi: «Ey
Binyaminlilər, indi mənə qulaq asın. Yesseyin
oğlu hamınıza tarlalar və üzümlüklər
verəcəkmi? Hamınızı minbaşı və yüzbaşı
edəcək ki, 8 mənim üçün hiylə qurursunuz?
Mənim oğlum Yesseyin oğlu ilə əhd bağlayan
zaman bunu qulağıma çatdıran olmadı və heç
birinizin mənə yazığı gəlmədi. Pusqu qurmaq
üçün oğlum mənim üstümə qulumu qiyama
qaldırır, deyə bu xəbəri qulağıma çatdıran
oldumu?» 9 Şaulun ə'yanlarının yanında
Edomlu Doeq də dayanmışdı və o dedi:
«Yesseyin oğlunu Novda, Axituv oğlu
Aximelekin yanına gələndə gördüm. 10 Orada
Aximelek Davud üçün Rəbbə müraciət etdi və
ona həm ərzaq, həm də Filiştli Qolyatın
qılıncını verdi».
11 Padşah Axituv oğlu kahin Aximeleki və
atasının külfətini, həm də Novda olan
kahinləri çağırmaq üçün adam göndərdi.
Onların hamısı padşahın yanına gəldi. 12 Şaul
dedi: «Ey Axituv oğlu, indi məni dinlə».
Aximelek dedi: «Buyurun, ağam». 13 Şaul
dedi: «Allaha müraciət edib bugünkü kimi
mənim üstümə qiyam qaldırmaq üçün Yessey
oğlunun əlinə çörək və qılınc verərək niyə
mənə qarşı fənd qurdunuz?» 14 Aximelek
padşaha cavab verdi: «Bütün ə'yanlarının
arasında Davud kimi sədaqətli olanı varmı? O,
padşahın kürəkəni, mühafizəçilərin başçısı və
sənin evində çox e'tibarlı sayılan adamdır.
15 Onun üçün Allaha müraciət etməyə ancaq o
gündənmi başlamışam? Əsla! Padşahım bu
quluna və atamın külfətinə şər atmasın, çünki
az-çox olsa belə, qulunun bu işdən heç bir
xəbəri yoxdur». 16 Padşah dedi: «Ey Aximelek,
sən və atanın külfəti mütləq ölməlisiniz».
17 Padşah yanındakı mühafizəçi əsgərlərə dedi:
«Dönün, Rəbbin kahinlərini öldürün. Ona
görə ki onlar da Davudla əlbir olub. Çünki
onun qaçdığını bilib bu xəbəri qulağıma
çatdırmayıblar». Lakin padşahın adamları əl
qaldırıb Rəbbin kahinlərini öldürmək
istəmədilər. 18 Padşah Edomlu Doeqə dedi:
«Dön, bu kahinləri öldür». Edomlu Doeq
dönüb kahinləri öldürdü və o gün kətan efod
geyən səksən beş kişi öldürüldü. 19 Sonra o,
kahinlərin şəhəri olan Novu da qılıncdan
keçirdi. Kişi, qadın, gənc, körpə bilmədən
bütün adamları, eləcə də öküzləri, eşşəkləri və
qoyunları qılıncdan keçirdi.
20 Axituvun oğlu Aximelekin oğullarından
Evyatar adlı bir nəfər qurtulub Davudun
yanına qaçdı. 21 Evyatar Şaulun Rəbbin
kahinlərini öldürdüyünü Davuda xəbər verdi.
22 Davud Evyatara dedi: «O vaxt Edomlu
Doeq orada olanda mütləq bunu Şaula
çatdıracağını anlamışdım. Atanın külfətinin
qırılmasına səbəb mən oldum. 23 Yanımda qal,
qorxma, çünki mənim canımı almaq istəyən
sənin də canını almaq istəyir. Əgər yanımda
qalsan, salamat olarsan».

### *Davudun Qeila şəhərini qurtarması*

23 1 Davuda xəbər verərək dedilər:
«Budur, Filiştlilər Qeilaya hücum
çəkib xırmanları talan edirlər». 2 Davud Rəbbə
müraciət edib dedi: «Gedib Filiştlilərlə
vuruşummu?» Rəbb Davuda dedi: «Get
Filiştlilərə hücum et və Qeilanı qurtar».
3 Davudun adamları isə ona dedilər: «Bax
burada – Yəhudada biz qorxu içərisindəyik.
Bəs biz Qeilaya, Filişt ordularına qarşı necə
çıxaq?» 4 Davud Rəbbə yenidən müraciət etdi
və Rəbb ona cavab verib dedi: «Qalx Qeilaya
en, çünki Filiştliləri sənə təslim edəcəyəm».
5 Davudla adamları Qeilaya gedib Filiştlilərə
qarşı hücuma keçdilər. Davud onların mal-
qaralarını apardı və Filiştlilərə güclü zərbə
vurub Qeila əhalisini qurtardı.

***22:1*** *– Zəb. 57 başlıq; Zəb. 142 başlıq*
***22:9-10*** *– Zəb. 52 başlıq*

6 Aximelekin oğlu Evyatar Qeilaya –
Davudun yanına qaçarkən əlində efod enmişdi.
7 Davudun Qeilaya gəlməsi Şaula çatdırıldı.
Şaul dedi: «Allah onu mənim ovcumun içinə
qoyub, çünki cəftəli darvazaları olan bir
şəhərə girməklə o özünü çıxılmaz vəziyyətə
salıb». 8 Şaul Qeilaya enmək və Davudla
adamlarını mühasirəyə almaq üçün bütün
xalqı müharibəyə çağırdı. 9 Şaulun ona pislik
etmək istədiyini Davud bilirdi. O, kahin
Evyatara dedi: «Efodu bura gətir». 10 Davud
sözünə davam etdi: «Ey İsrailin Allahı Rəbb,
mən ciddi mə'lumat almışam ki, bu quluna
görə şəhəri məhv etmək üçün Şaul Qeilaya
gəlmək istəyir. 11 Qeila sakinləri məni ona
təslim edəcəklərmi? Ey İsrailin Allahı Rəbb,
yalvarıram, bunu quluna agah et. Şaul da
sənin qulun eşitdiyi kimi bura enəcəkmi?»
Rəbb «o enəcək» dedi. 12 O zaman Davud dedi:
«Qeilalılar məni və adamlarımı Şaula təslim
edəcəkmi?» Rəbb «təslim edəcəklər» dedi.
13 Davud təxminən altı yüz nəfər adam ilə
qalxıb Qeiladan çıxdı və bu yerdən başqa yerə
getdi. Davudun Qeiladan qaçdığını eşidən
Şaul oraya getmək fikrindən döndü. 14 Davud
çöllükdə qalalarda qalıb Zif səhrasındakı
dağlıq bölgəsində yaşadı. Şaul hər gün
Davudu axtarırdı, lakin Allah onu Şaula
təslim etmədi.

### *Yonatan ilə Davudun görüşü*

15 Zif səhrasındakı Xoreşdə olan Davud
gördü ki, Şaul onun canını almaq üçün yola
çıxıb. 16 Şaulun oğlu Yonatan qalxıb Xoreşə,
Davudun yanına gəldi və onu Allah naminə
ruhlandırdı. 17 Ona dedi: «Qorxma, atam
Şaulun əlinə düşməyəcəksən, İsrailin padşahı
sən olacaqsan, mən səndən sonra ikinci
olacağam. Bunu hətta atam Şaul da bilir».
18 Sonra ikisi də Rəbbin önündə əhd bağladı
və Davud Xoreşdə qaldı, Yonatan isə evinə
qayıtdı.

### *Davudun Zifdə Şauldan qurtulması*

19 Ziflilər Giveaya, Şaulun yanına qalxıb
dedilər: «Davud bizim yanımızda, Yeşimonun
cənubundakı Xakila təpəsində, Xoreşdəki
qalalarda gizlənmişdi. 20 Ey padşah, indi oraya
ensən, ürəyindəki arzuna çatarsan. Onu
padşaha təslim etmək bizim payımıza düşər».
21 Şaul dedi: «Mənə xeyirxahlıq etdiyiniz
üçün Rəbb sizə bərəkət versin. 22 Gedin daha
yaxşı araşdırın və öyrənin ki, hara ayaq basıb,
kimlər onu görüb. Deyirlər ki, o çox
hiyləgərdir. 23 Gizləndiyi yerlərin hamısını
tapıb öyrənin, doğru xəbərlə mütləq yanıma
gəlin və mən də sizinlə oraya gedəcəyəm.
Əgər o bölgədə olsa, onu bütün Yəhuda
tayfaları arasında axtaracağam».
24 Ziflilər qalxıb Şauldan qabaq Zifə
qayıtdılar. Davudla adamları Yeşimonun
cənubunda – Aravadakı Maon səhrasında idi.
25 Şaulla adamları onu axtarmaq üçün həmin
yerə getdilər. Bu, Davuda xəbər verildi və o
da qayalığa enib Maon səhrasında qaldı. Şaul
bunu eşidərkən Maon səhrasında Davudu
tə'qib etdi. 26 Şaul dağın bir tərəfi, Davudla
adamları isə dağın o biri tərəfi ilə getməkdə
idi. Davud cəld tərpənib Şaulun qabağından
qaçdı, çünki Şaulla adamları Davudla
adamlarını tutmaq üçün oranı mühasirəyə
alırdılar. 27 Bu vaxt Şaulun yanına bir qasid
gəlib dedi: «Tez ol, geri qayıt, çünki Filiştlilər
ölkəyə hücum ediblər». 28 Şaul Davudu tə'qib
etməkdən əl çəkərək Filiştlilərə qarşı döyüşə
getdi. Ona görə də o yerə Sela-
Hammaxleqot[10] adı verildi. 29 Davud oradan
çıxıb En-Gedi qalalarında qaldı.

### *Davudun Şaula rəhmi*

24 1 Şaul Filiştliləri tə'qib edib
dönərkən ona belə xəbər verildi:
«Davud En-Gedi səhrasındadır». 2 O bütün
İsraildən üç min seçmə adam götürüb
Davudla adamlarını axtarmaq üçün Dağ
Keçiləri qayasının yaxınlığına getdi. 3 Yol
kənarındakı qoyun ağıllarına gəldi. Orada bir
mağara vardı. Şaul ayaqyoluna getmək üçün
oraya girdi. Davud adamları ilə mağaranın lap
içəri tərəfində oturmuşdu. 4 Davudun adamları
ona dedi: «Budur, Rəbbin sənə "bax
düşmənini sənə təslim edəcəyəm, gözündə nə
xoşdursa, ona edəcəksən" dediyi gün bu
gündür». Davud qalxıb gizlicə Şaulun
cübbəsinin ətəyindən kəsdi. 5 Sonra Şaulun
ətəyindən bir parça kəsdiyinə görə Davudun
ürəyi ağrıdı. 6 O, adamlarına belə dedi:
«Rəbbin məsh etdiyi ağama əl qaldırıb belə
bir iş görməyi Rəbb məndən uzaq etsin, çünki
o, Rəbbin məsh olunmuşudur». 7 Davud bu

***23:18*** *– 1Şam. 18:3*
***23:19*** *– Zəb. 54 başlıq*

[10] **23:28** *Sela-Hammaxleqot* – ibrani dilində *ayrılıq qayası.*
***24:3*** *– Zəb. 57 başlıq; Zəb. 142 başlıq*

sözlərlə adamlarının qarşısını aldı və onları
Şaula qarşı qalxmağa qoymadı. Şaul da
mağaradan çıxıb yoluna davam etdi.
8 Ondan sonra Davud qalxıb mağaradan
çıxdı və Şaulun arxasınca «Ağam padşah!»
deyə çığırdı. Şaul arxaya baxdı. Davud üzüstə
yerədək tə’zim etdi. 9 O, Şaula dedi: «“Davud
sənin pisliyini istəyir” deyən adamların
sözünə niyə qulaq asırsan? 10 Bax öz
gözlərinlə gördün ki, bu gün Rəbb mağarada
səni mənə necə təslim etdi. Mənə təklif etdilər
ki, səni öldürüm, lakin mən sənə qıymadım.
Dedim ki, ağama qarşı əl qaldırmaram, çünki
o, Rəbbin məsh olunmuş padşahıdır. 11 Ey
atam, əlimdəkinə bax, bu sənin cübbənin
ətəyidir. Cübbənin ətəyindən kəsib səni
öldürmədiyimdən gör və anla ki, sənə qarşı
pislik və qiyam etmək əlimdən gəlmir. Sən
canımı almaq üçün məni ovladığın halda mən
sənə qarşı günah etmədim. 12 Səninlə mənim
aramda qoy Rəbb hakim olsun! Qoy Rəbb
səndən mənim qisasımı alsın. Mən sənə əl
qaldırmaram. 13 Qədim zamanlardan belə bir
məsəl var: “Pislik pislərdən çıxar”. Bu
məsəldə deyildiyi kimi sənə əl
qaldırmayacağam. 14 İsrailin padşahı kimə
qarşı çıxıb? Sən kimi qovursan? Ölü itimi
qovursan, yoxsa bir birənimi? 15 Qoy Rəbb
səninlə mənim aramda hakim olub hökm
versin və baxıb bu çəkişməni görsün, məni
sənin əlindən qurtarsın».
16 Davud bu sözləri Şaula söyləyib
qurtarandan sonra Şaul «Oğlum Davud, bu
sənin səsindirmi?» dedi və bərkdən ağladı.
17 O, Davuda dedi: «Mən sənin qədər saleh
deyiləm, çünki sən mənə pisliyimin əvəzinə
yaxşılıq etdin. 18 Bu gün də mənə yaxşı
münasibətini bəlli etdin, çünki Rəbb məni
sənə təslim etdi, sən isə məni öldürmədin.
19 Əgər bir insan düşmənini taparsa, onu
salamat buraxarmı? Buna görə də bugünkü
işinin əvəzini Rəbb sənə yaxşılıqla ödəsin.
20 İndi isə bax bilirəm ki, sən mütləq padşah
olacaqsan və İsrailin padşahlığı sənin əlinə
keçib güclənəcək. 21 Məndən sonra nəslimi
kəsməyəcəyinə və atamın nəslindən adımı
silməyəcəyinə indi burada mənə Rəbbin haqqı
naminə and iç». 22 Davud Şaula and içdi və
Şaul evinə qayıtdı. Davud isə adamları ilə
sığınacağa çıxdı.

### *Şamuelin ölümü*

25 1 Şamuel öldü və bütün İsrail yığılıb
onun üçün yas qurdu. Onu Ramada –
öz evinin yanında dəfn etdilər. Sonra Davud
durub Paran səhrasına endi.

### *Aviqailin müdrikliyi*

2 Maonda yaşayan, Karmeldə mülkü olan
çox varlı bir adam var idi. Onun üç min baş
qoyunu, min baş keçisi vardı. O, qoyunlarını
Karmeldə qırxdırırdı. 3 Bu adamın adı Naval,
arvadının adı isə Aviqail idi. Qadın ağıllı və
gözəl idi. Kalev nəslindən olan kişi isə kobud
və bədxasiyyət idi. 4 Davud səhrada eşitdi ki,
Navalın qoyun qırxımı var. 5 O, on nökər
göndərib onlara dedi: «Karmelə qalxıb
Navalın yanına gedin və məndən ona salam
deyin. 6 Sonra ona belə deyərsiniz: “Ömrün
uzun olsun! Sən və evin, səninkilərin hamısı
qoy var olsun! 7 Eşitmişəm ki, indi sizdə yun
qırxımıdır. Sənin çobanların bizim yanımızda
olanda biz onları incitmədik və Karmeldə
qaldıqları günlər ərzində heç nəyi əskilmədi.
8 Bunu öz nökərlərindən də soruşa bilərsən və
onlar da sənə deyər. Qoy nökərlərim sənin
gözündə lütf tapsın, çünki yanına bayram
zamanı gəlmişik. Rica edirəm ki, qullarına və
oğlun Davuda əlində olanından ver”».
9 Davudun nökərləri gəlib bütün bu sözləri
Davudun adından Navala söyləyib gözlədilər.
10 Naval isə Davudun nökərlərinə belə cavab
verdi: «Davud kimdir? Yessey oğlu kimdir?
İndilərdə ağasından qaçan çox qullar var.
11 Çörəyimi, suyumu və qırxınçılar üçün
kəsdiyim heyvanların ətini götürüb haradan
olduğunu bilmədiyim adamlaramı verim?»
12 Davudun nökərləri öz yolları ilə geriyə
qayıtdılar və gəlib bu sözlərin hamısını
Davuda söylədilər. 13 Davud adamlarına
«hamı qılıncını bağlasın» dedi. Hamı bir nəfər
kimi qılıncını bağladı. Davud da belə etdi.
Dörd yüz nəfər Davudun ardınca getdi və iki
yüz nəfər isə ərzaqların yanında qaldı.
14 Navalın nökərlərindən biri onun arvadı
Aviqailə xəbər verdi: «Bax ağamızı
salamlamaq üçün Davud səhradan qasidlər
göndərdi, ağamız isə onları təhqir etdi.
15 Amma həmin adamlar bizə çox yaxşılıq
etmiş və bizi incitməmişdilər. Çöldə
olduğumuz, onlarla gəzdiyimiz bütün günlər
ərzində heç nəyimiz əskilməmişdi.
16 Qoyunları otararkən yanlarında olduğumuz

günlər gecə və gündüz bizə dayaq oldular.
17 İndi isə budur, bax nə edəcəyini düşün,
çünki ağamıza, onun bütün külfətinə qarşı pis
qərar verilmişdir. Çünki Naval elə yaramaz
insandır ki, ona kimsə söz deyə bilmir».

18 Bundan sonra Aviqail cəld tərpənib, iki
yüz kömbə çörək və iki tuluq şərab hazırladı.
Beş qoyun cəmdəyi, beş ölçü qovurğa, yüz
salxım quru üzüm və iki yüz parça basılmış
əncir lavaşanası götürüb eşşəklərə yüklədi.
19 Sonra nökərlərinə dedi: «Siz qabaqda gedin,
arxanızca gəlirəm». Bu barədə əri Navala heç
nə bildirmədi. 20 Aviqail eşşəyə minib dağın
bağlı tərəfindən enərkən Davud da adamları
ilə oraya enməkdə idi və qadın onlarla
rastlaşdı. 21 Davud demişdi: «Doğrudan da, bu
adamın çöldə olan bütün mallarını qorudum
və onun heç nəyini əskilməyə qoymadım,
amma nahaq yerə. O isə mənə yaxşılığımın
əvəzində pislik etdi. 22 Əgər səhərədək onun
bütün divar isladanlarından – kişilərindən
birini belə, sağ buraxsam, qoy Allah Davudun
düşmənlərinə beləsini və bundan da betərini
etsin».

23 Aviqail Davudu görcək cəld eşşəkdən
düşdü və Davudun önündə üzünü yerə
qoyaraq tə'zim etdi. 24 Sonra onun ayaqlarına
düşüb dedi: «Ey ağam, bu günahı mənim
üzərimə qoy. İzin ver ki, kənizin səninlə
danışsın. Nə olar, kənizinin sözlərinə qulaq as.
25 Ağam, rica edirəm, Navalın – o yaramaz
insanın acığını qəlbinə salma, çünki adı
necədirsə, özü də elədir. Adı Naval[11] olduğu
kimi özü də axmaqdır. Ey ağam, mən kənizin
ağamın göndərdiyin nökərləri görməmişəm.
26 Madam ki Rəbb səni indi qana batmaqdan
və öz əlinlə qisas almaqdan saxladı, var olan
Rəbbə və canına and olsun, ağamın
düşmənləri və bədxahları Naval kimi olsun.
27 İndi isə izin ver, kənizinin ağama gətirdiyi
bu hədiyyələr arxanca gələn cavanlara verilsin.
28 Yalvarıram, kənizinin günahını bağışla,
çünki Rəbb mütləq ağam üçün möhkəm sülalə
yaradacaq, ona görə ki ağam Rəbbin
döyüşlərini edir və ömrün boyu səndə şər
olmayacaq. 29 Kimsə qalxıb səni qovmaq və
canını almaq istəyəndə ağamın canını Rəbb
Allah asayiş altında saxlayacaq, sənin
düşmənlərinin canı isə sapandın ortasından
atılan daş kimi atılacaq. 30 Rəbb ağama dediyi
yaxşılıqların hamısını həyata keçirəndə və
səni İsrailə hökmdar edəndə 31 ağam nahaq
qan töküb özü üçün qisas aldığına görə
peşman olmayacaq, vicdan əzabı çəkməyəcək.
Rəbb ağama yaxşılıq edəndə kənizini də yada
sal».

32 Davud Aviqailə dedi: «İsrailin Allahı
Rəbbə alqış olsun ki, bu gün məni
qarşılamağa səni göndərdi. 33 Ağlına
bərəkallah, xeyir-dualı olasan! Bu gün məni
qan tökməkdən və əlimlə öz qisasımı
almaqdan saxladın. 34 Həqiqətən, məni sizə
pislik etməkdən sən saxladın, İsrailin Allahı
var olan Rəbbə and olsun, əgər cəld tərpənib
mənim qarşıma çıxmasaydın, mütləq səhər
işığına qədər Navalın divar isladanlarından –
kişilərindən biri də sağ qalmayacaqdı».
35 Davud onun gətirdiyi şeyləri əlindən alıb
dedi: «Evinə salamat get, budur, sənin sözünə
baxıb xahişini yerinə yetirdim».

36 Aviqail Navalın yanına gəldi. Navalın
evində padşah ziyafətinə oxşar bir ziyafət
vardı. O çox sərxoş olduğuna görə könlü
nəş'əli idi. Səhər açılana qədər qadın ona heç
nə bildirmədi. 37 Səhər açılanda, Naval
şərabdan ayılan kimi arvadı baş verən
hadisələri ona danışdı və Navalın ürəyindən
ağrı tutdu, bədəni daşa döndü. 38 Bununla da
təxminən on gündən sonra Rəbb Navalı vurdu
və o öldü.

39 Davud Navalın öldüyünü eşidəndə dedi:
«Navalın əli ilə yaranan rüsvayçılığımı görüb
qulunu davadan və pislikdən saxlayan Rəbbə
alqış olsun! Rəbb Navalın bədxahlığını öz
başına gətirdi». Davud Aviqaili özünə arvad
olaraq almaq üçün ona elçi göndərdi.
40 Davudun elçiləri Karmelə, Aviqailin yanına
gəlib belə söylədilər: «Səni arvad olaraq
almaq üçün Davud bizi elçi göndərdi».
41 Aviqail qalxıb yerədək tə'zim edib dedi:
«Qoy kənizin ağamın qullarının ayaqlarını
yumaq üçün bir qaravaş olsun». 42 O cəld
qalxıb eşşəyə mindi. Ona xidmət edən beş
gənc qadını yanına alaraq Davudun
qasidlərinin ardınca getdi və Davudun arvadı
oldu.

43 Davud İzreelli Axinoamı da almışdı. Hər
ikisi onun arvadı oldu. 44 Şaul isə qızı Mikalı –
Davudun arvadını Qallimli Layiş oğlu Paltiyə
ərə vermişdi.

---

[11] **25:25** *Naval* – ibrani dilində *axmaq.*

### *Davudun yenə Şaula rəhm etməsi*

26 1 Ziflilər Giveaya, Şaulun yanına
gəlib dedilər: «Davud Yeşimon şəhəri
ilə üzbəüz olan Xakila təpəsində
gizlənmirmi?» 2 Şaul durub Davudu axtarmaq
üçün özü ilə bərabər İsraildən üç min seçmə
adam götürərək Zif səhrasına endi. 3 O,
Yeşimonla üzbəüz olan Xakila təpəsindəki
yol kənarında ordugah qurdu. Səhrada qalan
Davud Şaulun onun ardınca düşüb gəldiyini
gördü. 4 Davud kəşfiyyatçılar göndərdi və
həqiqətən, Şaulun gəldiyini öyrəndi. 5 O
qalxıb Şaulun ordugah qurduğu yerə gəldi və
Şaulla ordu başçısı Ner oğlu Avnerin yatdığı
yerə baxdı. Şaul ordugahın içərisində yatırdı.
Xalq onun yanında düşərgə salmışdı.

6 Davud Xetli Aximelekə və Yoavın qardaşı
Seruya oğlu Avişaya dedi: «Kim mənimlə
Şaulun yanına – ordugaha enər?» Avişay dedi:
«Mən səninlə enərəm». 7 Davud və Avişay
gecə xalqın yanına çatdılar və budur, Şaul
ordugahın içərisində yatıb yuxuya getmişdi,
nizəsi isə başı üstündə yerə sancılmışdı.
Avnerlə xalq isə onun ətrafında yatırdı.
8 Avişay Davuda dedi: «Allah bu gün
düşmənini sənə təslim etdi. İndi isə qoy nizə
ilə onu birdəfəlik yerə elə yapışdırım ki,
ikinci dəfə vurmağa ehtiyac olmasın».
9 Davud Avişaya dedi: «Yox, onu öldürmə!
Bax Rəbbin məsh etdiyinə əl qaldıran
günahsız sayılarmı?» 10 Davud yenə dedi:
«Var olan Rəbbə and olsun, Rəbb onu mütləq
vuracaq. Elə gün gələcək ki, öz əcəli ilə
öləcək ya da döyüşdə həlak olacaq. 11 Qoy
Rəbbin məsh etdiyinə əl qaldırmaqdan Rəbb
Özü məni uzaq etsin. Rica edirəm, indi
başının yanındakı nizəsini və su qabını götür
gedək». 12 Davud Şaulun başının yanındakı
nizəsi ilə su qabını götürdü və onlar getdilər.
Onları görən olmadı. Bu işi bilən və oyanan
da olmadı. Rəbb tərəfindən onların üstünə
dərin yuxu gəldiyinə görə hamı yatmışdı.

13 Davud qarşı tərəfə keçib uzaqda, dağın
başında durdu; onların arasında xeyli məsafə
var idi. 14 Davud xalqa və Ner oğlu Avnerə
«ey Avner, mənə cavab ver» deyə qışqırdı.
Avner də cavab verdi: «Sən kimsən ki,
qışqıra-qışqıra padşahı çağırırsan?» 15 Davud
Avnerə dedi: «Sən igidsən? İsraildə sənə
bənzər kim var ki? Bəs niyə ağan padşahın
keşiyini çəkmirsən? Axı xalq arasından biri
ağan padşahı öldürmək üçün gəlmişdi. 16 İşini
yaxşı görmürsən. Var olan Rəbb haqqı,
hamınız ölümə layiq adamlarsınız, ona görə ki
ağanızın – Rəbbin məsh etdiyinin keşiyini
çəkmirsiniz. Bax padşahın başının yanında
olan nizə və su qabı indi haradadır?»

17 Şaul Davudun səsini tanıyıb dedi: «Bu
sənin səsindirmi, oğlum Davud?» Davud dedi:
«Mənim səsimdir, ağam padşah». 18 Sonra
sözünə davam etdi: «Ağam nə üçün qulunu
belə tə’qib edir? Nə etmişəm ki? Əlimdən nə
pislik gəlib? 19 Rica edirəm, ağam padşah indi
qulunun sözlərinə qulaq assın. Əgər mənə
qarşı səni qaldıran Rəbdirsə, bir təqdim qəbul
etməyə razı olsun, yox, əgər bəşər
övladlarıdırsa, qoy onlar Rəbb qarşısında
lə’nətə gəlsinlər. Belə ki “get özgə allahlara
qulluq et” deyərək Rəbbin irsindən pay
almayım deyə məni qovdular. 20 Qoy qanım
Rəbbin hüzurundan uzaq yerdə tökülməsin.
Dağlarda necə kəklik ovlayırlarsa, indi İsrail
padşahı da bir tək birəni axtarmaq üçün eləcə
ova çıxıb».

21 Şaul dedi: «Günah etdim, qayıt, oğlum
Davud. Mənim canım bu gün sənin gözündə
qiymətli olduğu üçün bir daha sənə pislik
etməyəcəyəm. Bax ağılsızlıq edib lap çox
yanıldım». 22 Davud cavab verdi: «Budur
nizən, ey padşah! Qoy nökərlərindən biri
gəlib onu aparsın. 23 Rəbb hər kəsə öz
salehliyinin və sədaqətinin əvəzini verəcək.
Bu gün Rəbb səni mənə təslim etdiyi halda
mən Rəbbin məsh etdiyinə əl qaldırmaq
istəmədim. 24 Qoy bu gün sənin canın
gözümdə necə qiymətlidirsə, mənim canım da
Rəbbin gözündə elə qiymətli olsun və məni
hər çətinlikdən qurtarsın». 25 Şaul Davuda
dedi: «Oğlum Davud, bəxtiyar olasan! Sən
böyük işlər görüb mütləq qalib gələcəksən».
Bundan sonra Davud öz yolu ilə getdi və Şaul
da öz yerinə qayıtdı.

### *Davud Filiştlilər arasında*

27 1 Davud ürəyində düşündü: «Bir
gün Şaulun əlində öləcəyəm. Mənim
üçün Filiştlilərin ölkəsinə qaçmaqdan yaxşı
çarə yoxdur. Şaul da məni bütün İsrail
torpağında axtarmaq fikrindən əl çəkər və
mən onun əlindən qurtararam». 2 Davud durub
yanındakı altı yüz kişi ilə Qat padşahı Maok
oğlu Akişin tərəfinə keçdi. 3 Davud həm özü,
həm də adamlarının hər biri külfəti ilə –

---

***26:1*** *– Zəb. 54 başlıq*

Davudun iki arvadı İzreelli Axinoam və
Karmelli Navalın dul arvadı Aviqaillə birlikdə
Qatda, Akişin yanında qaldı. 4 Davudun Qata
qaçdığını Şaula xəbər verdilər və o da bir
daha onu axtarmadı.
5 Davud Akişə dedi: «Əgər indi sənin
gözündə lütf tapmışamsa, qoy ətraf şəhərlərin
birində mənə yer verilsin və mən də orada
qalım. Axı nə üçün bu qulun padşah şəhərində
sənin yanında qalsın?» 6 O gün Akiş ona
Ziqlaqı verdi. Bu günə qədər Ziqlaq Yəhuda
padşahlarına məxsusdur. 7 Davudun
Filiştlilərin ölkəsində qaldığı müddət bir il
dörd ay idi.
8 Davudla adamları gəlib Geşurlulara,
Girzlilərə və Amaleqlilərə basqın etdilər. Bu
xalqlar qədim zamanlardan bəri Şura
çatanadək – Misir ölkəsinə qədər olan ərazidə
məskən salmışdılar. 9 O hücum etdiyi bu
yerlərdə nə qadın, nə də kişilərdən heç kimi
sağ buraxmazdı. Onların qoyunlarını,
öküzlərini, eşşəklərini, dəvələrini və
geyimlərini götürüb Akişin yanına qayıdırdı.
10 Akiş ondan soruşanda ki bu gün hara basqın
etdiniz, Davud belə cavab verirdi:
«Yəhudanın, Yeraxmeellilərin və Qenlilərin
cənub bölgəsinə basqın etdik». 11 Davud belə
edirdi. Filiştlilərin ölkəsində qaldığı müddət
ərzində onun iş üsulu belə idi: «Bizim
haqqımızda qoy xəbər verməsinlər» deyərək
nə kişi, nə də qadınlardan heç kimi sağ
buraxmaz və onlardan heç birisini Qata
gətirməzdi.
12 Akiş Davuda inanaraq belə düşünürdü:
«Artıq o öz xalqının – İsrailin gözündən
tamamilə düşüb və bundan sonra həmişəlik
qulum olacaq».

### *Şaul və En-Dorlu cindar qadın*

28 1 Həmin dövrdə İsrailə qarşı
döyüşmək üçün Filiştlilər ordularını
döyüşə yığdılar. Akiş Davuda dedi: «Bunu
yaxşı bil ki, sən və adamların mənimlə bir
orduda döyüşəcəksiniz». 2 Davud Akişə dedi:
«Ə'la! Sən qulunun nə edəcəyini görəcəksən».
Akiş Davuda dedi: «Çox yaxşı, mən səni
həmişə özümə mühafizəçi qoyacağam».
3 Şamuel ölmüşdü və bütün İsrail onun
üçün yas tutmuşdu. Onu Ramada – öz
şəhərində dəfn etmişdilər. Şaul isə bütün
cindarları və ruhçağıranları ölkədən
qovmuşdu.
4 Filiştlilər yığılaraq gəlib Şunamda
ordugah qurdular. Şaul bütün İsraili yığıb
Gilboa dağında ordugah qurdu. 5 Şaul Filişt
ordugahını görəndə qorxudan ürəyi əsdi. 6 O,
Rəbbə müraciət etdi. Amma Rəbb ona nə
yuxu, nə Urim, nə də peyğəmbərlər vasitəsilə
cavab verdi. 7 Şaul ə'yanlarına dedi: «Mənim
üçün bir cindar qadın tapın ki, gedib ona
müraciət edim». Ə'yanları ona dedilər: «Bax
En-Dorda bir cindar qadın var».
8 Şaul zahiri görkəmini dəyişdirdi, başqa
paltar geyinib, iki nəfərlə bərabər oraya getdi
və gecə ikən qadının yanına gəlib çatdı. Şaul
dedi: «Rica edirəm, mənim falıma baxıb
cindarlığını göstər və kimi desəm, onu mənim
üçün çıxar». 9 Qadın dedi: «Bax Şaulun bu
ölkədə nə etdiyini, cindarları və ruhçağıranları
necə qırdığını bilirsən. Niyə məni öldürmək
üçün canıma tələ qurursan?» 10 Şaul qadına
«var olan Rəbbə and olsun, bu işin sənə bir
ziyanı olmayacaq» deyərək Rəbbə and içdi.
11 Qadın dedi: «Sənin üçün kimi çıxarım?»
Şaul «mənə Şamueli çıxar» dedi. 12 Qadın
Şamueli görüncə bərkdən çığırıb Şaula dedi:
«Sən ki Şaulsan, niyə məni aldatdın?»
13 Padşah ona dedi: «Qorxma, de görüm, nə
görürsən?» Qadın Şaula dedi: «Yer altından
çıxan allahlar kimi bir şəxs görürəm». 14 Şaul
dedi: «O kimə oxşayır?» Qadın dedi: «Cübbə
geyinmiş qoca bir adam çıxır». Şaul onun
Şamuel olduğunu başa düşüb üzüstə əyilib
yerə sərildi.
15 Şamuel Şaula dedi: «Məni çıxararaq niyə
narahat etdin?» Şaul dedi: «Çox dara
düşmüşəm, çünki Filiştlilər mənə qarşı
müharibə edirlər. Artıq Allah da məndən üz
döndərib, daha mənə peyğəmbərlər, yuxular
vasitəsilə cavab vermir. Ona görə də səni
çağırdım ki, nə etməliyəmsə, onu mənə
bildirəsən». 16 Şamuel dedi: «Əgər Rəbb
səndən üz döndəribsə, demək O sənə düşmən
olmuşdur. Belə halda bunu niyə məndən
soruşursan? 17 Rəbb mənim vasitəmlə
söylədiyini etdi və padşahlığı sənin əlindən
qoparıb onu sənin yaxının Davuda verdi.
18 Sən Rəbbin sözünə baxmadığın və Onun
qızğın qəzəbini Amaleqlilərin üstünə

***28:3*** *– 1Şam. 25:1*
***28:3*** *– Lev. 20:27; Qanun. 18:10-11*
***28:17*** *– 1Şam. 15:28*
***28:18*** *– 1Şam. 15:3-9*

gətirmədiyin üçün bu gün O səni bu hala salıb.
19 Rəbb səninlə bərabər İsraili də Filiştlilərə
təslim edəcək və sabah sən və oğulların
mənimlə bərabər olacaqsınız, çünki Rəbb
İsrail ordusunu da Filiştlilərə təslim edəcək».

20 Şaul o zaman tir-tap yerə sərildi. Ona
görə ki Şamuelin sözlərindən çox qorxmuşdu,
həm də onda taqət qalmamışdı, çünki bütün
günü və gecəni çörək yeməmişdi. 21 Qadın
Şaulun yanına gəldi və onu sarsılmış halda
gördükdə dedi: «Bax kənizin sənin sözünə
itaət etdi. Canımı dişimə tutub mənə dediyin
sözlərə qulaq asdım. 22 Rica edirəm, indi
kənizinin sözünə qulaq as və qabağına bir tikə
çörək qoyum, onu ye ki, yola düşəndə qüvvən
olsun». 23 Lakin Şaul bunu rədd edib
«yemirəm» dedi. Amma ə'yanları da qadınla
bərabər onu məcbur etdikdə Şaul onların
sözünə qulaq asdı və yerdən qalxıb yatağın
üstündə oturdu. 24 Qadının evində kökəldilmiş
bir dana var idi. Tez onu kəsdi və un götürüb
yoğurdu, ondan mayasız çörək bişirdi.
25 Sonra onu Şaulla ə'yanlarının qarşısına
qoydu. Onlar yeyib ayağa qalxdılar və həmin
gecə də durub getdilər.

### *Filiştlilərin Davuda inanmaması*

29 1 Filiştlilər bütün ordularını Afeqdə
topladılar. İsraillilər isə İzreeldəki
bulağın yanında ordugah qurdular.

2 Filiştlilərin ağaları yüz və min nəfərlik
dəstələrlə irəliləyirdilər. Davudla adamları isə
Akişlə birlikdə arxadan gəlirdilər.

3 Filiştlilərin ağaları dedilər: «Bu İbranilərin
burada nə işi var?» Akiş onlara belə cavab
verdi: «Bu adam bu günlərdə yaxud daha
doğrusu, bu illərdə yanımda olan İsrail
padşahı Şaulun qulu Davud deyilmi? Mənim
yanıma gələn gündən bəri onda pis bir şey
görmədim». 4 Filiştlilərin ağaları Akişin
üstünə qəzəblənib dedilər: «Bu adamı geri
qaytar, qoy o tə'yin etdiyin yerə qayıtsın və
bizimlə döyüşə getməsin, yoxsa döyüşdə bizə
düşmənçilik edər. Çünki o ağasının rəğbətini
qazanmaq üçün buradakı adamların başını
kəsib ona aparmaqdan daha yaxşı yol taparmı?
5 Rəqslərdə

"Şaul qırdı minləri,
Davudsa on minləri"

deyə haqqında tərənnüm sözləri söylənən
Davud bu deyilmi?» 6 Akiş Davudu çağırıb
ona dedi: «Var olan Rəbbə and olsun, sən düz
adamsan. Orduda mənimlə yürüşə çıxmağın
gözümdə xoşdur, çünki yanıma gəldiyin
gündən bu günə qədər səndə pis bir şey
tapmadım. Lakin ağaların gözünə xoş
görünmürsən. 7 İndi sağ-salamat öz yerinə
qayıt. Filiştlilərin ağalarının gözündə pis olanı
etmə». 8 Davud Akişə dedi: «Axı mən nə
etmişəm? Yanına gələn gündən bu günə qədər
qulunda nə tapdın ki, ağam padşahın
düşmənlərinə qarşı gedib vuruşmayım?»
9 Akiş Davuda cavab verdi: «Bilirəm ki,
mənim gözümdə sən Allahın mələyi kimi
yaxşısan, amma Filiştlilərin başçıları dedilər:
"O bizimlə bir döyüşə çıxmasın". 10 İndi
səninlə gələn ağanın qulları ilə birgə səhər
tezdən qalxın. Sübh tezdən qalxın və dan yeri
ağarar-ağarmaz buradan gedin».

11 Səhəri yola çıxmaq üçün Davud özü və
adamları qalxıb Filiştlilərin torpağına qayıtdı.
Filiştlilər isə İzreelə getdilər.

### *Davudun Amaleqliləri məğlub etməsi*

30 1 Davudla adamları üçüncü gün
Ziqlaqa çatdılar. Elə bu zaman
Amaleqlilər Negevə və Ziqlaqa hücum edərək
Ziqlaq şəhərinə od vurub yandırmışdılar.
2 Orada olan qadınlardan isə heç kimi
öldürməmişdilər, böyükdən kiçiyə qədər
hamısını əsir edib öz yolları ilə geri
qayıtmışdılar. 3 Davud adamları ilə şəhərə
gəlib gördü ki, şəhər yandırılıb və onların
arvadları, oğul və qızları əsir aparılıb. 4 Buna
görə Davud yanına yığılan camaatla birgə
taqətdən düşənə qədər hönkürüb ağladı. 5 Əsir
aparılanlar arasında Davudun iki arvadı,
İzreelli Axinoamla Karmelli Navalın dul
arvadı Aviqail də var idi. 6 Davudun ürəyi çox
sıxılırdı, çünki xalq «onu daşlayaq» deyirdi.
Ona görə ki camaatın hər birinin oğul və
qızından ötrü canı yanırdı. Lakin Davud
Allahı Rəbdən qüvvət aldı.

7 O, Aximelekin oğlu kahin Evyatara dedi:
«Rica edirəm, efodu mənim üçün buraya
gətir». Evyatar da efodu Davudun yanına
gətirdi. 8 Davud Rəbbə müraciət edərək dedi:
«Bu basqınçıların arxasınca düşsəm, onlara
çatarammı?» Rəbb ona dedi: «Ardlarınca düş,

---

***29:5*** *– 1Şam. 18:7; 21:11*

***30:5*** *– 1Şam. 25:42-43*
***30:6-7*** *– 1Şam. 22:20-23*

mütləq onlara çatacaqsan və mütləq əsirləri
qurtaracaqsan». 9 Davud yanında olan altı yüz
nəfərlə gedib Besor vadisinə çatdı. Yorulub
dala qalanlar isə vadidə qaldılar. 10 Lakin
Davud dörd yüz nəfərlə basqınçıların ardınca
qaçmaqda davam etdi, çünki iki yüz nəfər
adam yorularaq Besor vadisini keçə
bilməmişdi. 11 Çöldə bir Misirli tapdılar və
onu Davudun yanına gətirdilər. Ona çörək
yedirib, su içirtdilər. 12 Sonra bir dilim
basılmış əncir lavaşanası ilə iki salxım quru
üzüm verdilər. O da yeyib özünə gəldi, çünki
üç gün-üç gecə çörək yeməmiş və su
içməmişdi. 13 Davud ona dedi: «Sən kimin
qulusan? Haradansan?» O dedi: «Bir
Amaleqlinin qulu, Misirli bir gəncəm. Üç gün
əvvəl xəstələndim, ona görə ağam məni atdı.
14 Biz Keretlilərin cənubuna, Yəhuda
torpağına və Kalevin cənubuna basqın etdik,
Ziqlaqa od vurub yandırdıq». 15 Davud ona
dedi: «Məni bu basqınçıların yanına
aparарsanmı?» Həmin adam dedi: «Məni
öldürməyəcəyinə və ağama təslim
etməyəcəyinə Allah haqqı üçün and iç, mən
də səni basqınçıların yanına aparım».

16 O, Davudu basqınçıların yanına endirdi.
Bu zaman basqınçılar hər yana yayılmışdılar.
Onlar Filişt və Yəhuda diyarından böyük
talan malı götürmüş və bundan ötrü yeyib-
içərək şənlik edirdilər. 17 Davud gün batandan
ertəsi günün axşamınadək onları qırdı.
Dəvələrə minib qaçan dörd yüz nəfər gəncdən
başqa heç kim canını qurtara bilmədi. 18 O,
Amaleqlilərin götürüb apardığı hər bir şeyi və
iki arvadını geri qaytardı. 19 Böyükləri,
kiçikləri, bütün oğul və qızları, talan edərək
ələ keçirdikləri bütün şeyləri Davud geri
qaytardı və onlardan heç nə əskik olmadı.
20 Davud qoyunlarla öküzləri də geri qaytardı.
Onları o biri heyvanların qarşısından sürüb
«bu, Davudun talan malıdır» deyirdilər.

21 Davud yorulub ardınca gələ bilməyən və
Besor vadisində qalan iki yüz nəfərin yanına
gəldi. Onlar Davudu və yanındakı adamları
qarşılamağa çıxdılar. Davud oraya
yaxınlaşanda xalqa salam verdi. 22 Davudla
birlikdə gedən adamlar arasında olan bütün
pis və yaramaz adamlar belə dedilər: «Onlar
bizimlə birlikdə getmədikləri üçün biz də
qurtardığımız talan malından onlara heç nə
verməyəcəyik. Ancaq hər adama öz arvad-
uşaqlarını verəcəyik. Qoy onları götürüb
buradan getsinlər». 23 Amma Davud onlara
belə dedi: «Xeyr, qardaşlarım! Rəbbin bizə
verdiyi şeylərlə belə etməyəcəksiniz. Bizi
qoruyan Rəbdir və üstümüzə gələn
basqınçıları O bizə təslim etdi. 24 Sizin bu
sözünüzü kim dinləyər? Çünki döyüşə
gedənin payı nə qədərdirsə, yüklərin yanında
qalanın da payı o qədər olacaq, bərabər
bölünəcək». 25 Davud bütün İsrail üçün o
gündən bu günə qədər davam edən bir qanun
və hökm yaratdı.

26 Davud Ziqlaqa gəldi və «budur, sizin
üçün Rəbbin düşmənlərindən alınan talandan
bir hədiyyə» deyərək dostları olan Yəhuda
ağsaqqallarına, 27 Bet-Eldə, Negevdəki
Ramotda və Yattirdə, 28 Aroerdə, Sifmotda,
Eştemoada, 29 Rakalda, Yeraxmeellilərin və
Qenlilərin şəhərlərində, 30 Xormada, Bor-
Aşanda, Atakda, 31 Xevronda olanlara və
adamları ilə gəzdiyi yerlərin hamısında
yaşayanlara talan malından göndərdi.

### *Şaulla oğullarının ölümü*

*(1Saln. 10:1-14)*

31 1 Filiştlilər İsraillilərlə döyüşdü.
İsraillilər Filiştlilərin önündən
qaçdılar, qırılanlar Gilboa dağında qaldı.
2 Filiştlilər Şaulla oğullarını tə’qib edib
Şaulun oğulları Yonatanı, Avinadavı və
Malki-Şuanı öldürdülər. 3 Döyüş Şaulun
ətrafında şiddətlənəndə oxatanlar onu tapdılar
və ağır yaraladılar. 4 Şaul öz silahdarına dedi:
«Qılıncını çək, məni vur, yoxsa bu
sünnətsizlər gəlib qılınclarını mənə batıraraq
əylənəcəklər». Lakin silahdarı çox
qorxduğundan bunu etmək istəmədi. Ona görə
də Şaul qılıncını götürüb özünü onun üstünə
yıxdı. 5 Şaulun öldüyünü görəndə silahdarı da
özünü qılıncının üstünə yıxıb Şaulla birgə
öldü. 6 O gün Şaul, üç oğlu, silahdarı və bütün
adamları ilə birlikdə belə həlak oldular.
7 Dərənin o biri tərəfində və İordan çayının o
biri tayında olan İsraillilər İsrail ordusunun
qaçdığını və Şaulla oğullarının öldüyünü
görəndə şəhərləri qoyub qaçdılar. Filiştlilər
gəlib o yerlərdə yaşadılar.

8 Ertəsi gün Filiştlilər öldürülənləri soymaq
üçün gələndə Gilboa dağında Şaulla üç
oğlunun meyitini tapdılar. 9 Şaulun başını
kəsib silahlarını götürdülər. Bütlərinin
mə’bədinə və xalqa xoş xəbər vermək üçün
Filiştlilərin ölkəsinin hər tərəfinə qasid
göndərdilər. 10 Şaulun silahlarını ilahə

Aştoretin mə’bədinə qoydular və cəsədini
Bet-Şean şəhərinin divarına mıxladılar.
11 Yaveş-Gilead əhalisi Filiştlilərin Şaula
etdiklərini eşidəndə 12 bütün igidləri qalxıb
gecə boyu yol gedərək Şaulun və oğullarının
cəsədini Bet-Şeanın divarından götürdülər.
Yaveşə gəlib orada cəsədləri yandırdılar.
13 Sonra cəsədlərin sümüklərini götürüb
Yaveşdə, yulğun ağacının altında basdırdılar
və yeddi gün oruc tutdular.